...Bizimlə etibarlıdır



2016

# TURANBANK
# İLLİK HESABAT

Hesabat ilində Azərbaycan Respublikası dövlət müstəqilliyinin 25 illiyini qeyd etmişdir. Azərbaycan tarixində əlamətdar günlərdən biri olan 1991-ci ilin 18 oktyabrı - dövlət müstəqilliyinin bərpa olunduğu gündən bəri keçən dövrdə Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu və onun davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurla davam etdirdiyi siyasi, iqtisadi, sosial və idman sahələrində strateji xətt bu gün Azərbaycanı güclü iqtisadiyyata malik, beynəlxalq aləmdə etibarlı tərəfdaş və nüfuzlu dövlət kimi dünya birliyinin ayrılmaz bir üzvünə çevirmişdir. TuranBankın İllik Hesabatını vərəqləyərkən müstəqilliyini bərpa etdiyi tarixdən keçən 25 il ərzində ölkəmizin qazandığı ən mühüm uğurlarla yaxından tanış ola bilərsiniz.





# MÜNDƏRİCAT


| | |
|---|---|
| 3 | STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR |
| 5 | BANK HAQQINDA ÜMUMİ MƏLUMAT |
| 9 | 2016-CI İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR |
| 12 | ÖN SÖZ |
| 17 | MAKROİQTİSADİYYAT VƏ BANK SEKTORU |
| 22 | KREDİTLƏŞMƏ |
| 25 | MÜŞTƏRİ XİDMƏTLƏRİ VƏ MARKETİNQ FƏALİYYƏTİ |
| 29 | KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT |
| 32 | RİSKLƏRİN İDARƏ EDİLMƏSİ |
| 35 | ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR |
| 37 | İNFORMASİYA TEXNOLOGİYALARI |
| 39 | İNSAN RESURSLARI |
| 41 | BEYNƏLXALQ ƏMƏKDAŞLIQ |
| 44 | XƏZİNƏDARLIQ FƏALİYYƏTİ |
| 47 | AUDİTOR RƏYİ |





1992 – AZƏRBAYCAN BMT-NİN ÜZVLÜYÜNƏ QƏBUL OLUNDU.

# STRATEJİ BAXIŞ, MİSSİYA VƏ DƏYƏRLƏR

## STRATEJİ BAXIŞIMIZ

TuranBankı Respublikanın bütün regional mərkəzlərində satış şəbəkəsi vasitəsi ilə bütün ölkə üzrə əhali, mikro, kiçik və orta sahibkarlığa xidmət göstərən, xarici investisiyalı pərakəndəyönümlü universal bank etmək.

## MİSSİYAMIZ

TuranBank inkişaf edən peşəkar komandası ilə müştərilərinə beynəlxalq standartlara uyğun yüksək keyfiyyətli xidmət göstərən, cəmiyyətin sosial həyatında aktiv iştirak edən, investorlarının investisiyalarının dəyərinin artımını təmin edərək dinamik inkişaf edən etibarlı və şəffaf bankdır.

## 1. İNVESTORLARA MÜNASİBƏTDƏ

Bank əldə edilən mənfəətin bir hissəsini reinvestisiya etməyi hədəfləyir. Bundan əlavə, Bank həm bazar payının, həm aktivlərinin keyfiyyətinin, həm də korporativ dəyərlərinin reallaşması nəticəsində imicinin artması hesabına səhmlərinin real dəyərinin davamlı artmasına nail olacaqdır. Bu, mövcud səhmdarların Banka investisiyalarının artırılmasını stimullaşdırmaqla yanaşı, Bankı digər investorlar üçün cəlbedici edəcək və xarici investisiyanın kapitalda xüsusi çəkisinin artımına səbəb olacaqdır.

## 2. İŞÇİYƏ MÜNASİBƏTDƏ

Bank işçi heyətini daima diqqətdə saxlayacaq, onlara daimi və məqsədli investisiyalar qoyacaq, karyera inkişafını təmin edəcək, öz potensiallarının reallaşması üçün yuxarıdan aşağı səlahiyyət bölgüsünü təkmilləşdirəcək və nəticəyə əsaslanan motivasiya sistemlərinin tətbiq dairəsini genişləndirəcəkdir.

## 3. MÜŞTƏRİYƏ MÜNASİBƏTDƏ

Bank işçi heyətinə və informasiya texnologiyalarına qoyulan investisiyaların nəticəsi olaraq, müştərilərinə daha peşəkar, keyfiyyətli və operativ xidmət göstərəcək, hər bir müştəri qrupuna xüsusi xidmətlər paketi hazırlayacaqdır.

## 4. DƏYƏRLƏRİMİZ

- Bütövlük (maraqların qorunması, səmimiyyət, dürüstlük, dəqiqlik, məsuliyyətlilik, obyektivlik, ardıcıllıq)
- Şəffaflıq
- Daimi inkişaf
- Müştəriyə yönlənmə
- Etibarlılıq
- Nəticəyə yönlənmə
- İşçiyə ən qiymətli kapital kimi dəyər vermək
- Cəmiyyət qarşısında korporativ sosial məsuliyyət



1992- AZƏRBAYCAN ATƏT-İN ÜZVLÜYÜNƏ QƏBUL OLUNDU.

# BANK HAQQINDA ÜMUMİ MƏLUMAT

| | |
|---|---|
| Bankın tam adı: | TuranBank Açıq Səhmdar Cəmiyyəti |
| Bankın qısa adı: | TuranBank ASC |
| Yaranma Tarixi: | 12 iyun 1992 |
| Hüquqi Ünvanı: | AZ1073, İsmayıl bəy Qutqaşınlı küç.,85, Bakı şəh., Azərbaycan Respublikası |
| Kod: | 507462 |
| VÖEN: | 1300016391 |

Azərbaycan Mərkəzi Bankında

| | |
|---|---|
| Müxbir Hesab: | AZ26NABZ01350100000000027944 |
| SWIFT: | TURAAZ22 |
| Call Centre: | +994 (12) 935 |
| Telefonlar: | +994 (12) 510 79 11, 510 79 22 |
| Faks: | +994 (12) 510 80 33 |
| E-mail: | office@turanbank.az |
| Web: | www.turanbank.az |
| Facebook: | www.facebook.com/turanbankasc |

## PEŞƏKAR ASSOSİASİYALARDA, BİRLİKLƏRDƏ, BİRJALARDA VƏ ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ ÜZVLÜK

- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK)
- Azərbaycan Banklar Assosiasiyası (ABA)
- Azərbaycan Mikro-Maliyyə Assosiasiyası (AMA)
- Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)
- Azərbaycan Risk Peşəkarları Assosiasiyası (ARPA)
- Alman-Azərbaycan Ticarət Palatası (DAA)
- Amerika–Azərbaycan Ticarət Palatası (AMCHAM)
- Beynəlxalq Banklararası Maliyyə Telekomunikasiya Birliyi (SWIFT)
- SAXO Bank – ticarət platforması
- MasterCard Beynəlxalq Ödəniş sistemi
- Western Union Beynəlxalq Ödəniş sistemi
- Zolotaya Korona MDB ölkələri üzrə ödəniş sistemi
- IBA-Express MDB ölkələri üzrə ödəniş sistemi
- Monex respublikadaxili pul köçürmə sistemi

## LİSENZİYA

TuranBank Azərbaycan Respublikası Milli Bankı tərəfindən verilmiş (hazırkı Mərkəzi Bank) 30.12.1992-ci il tarixli 115 N°-li lisenziya və bankın təşkilati hüquqi formasının dəyişməsi ilə əlaqədar 23.03.2005-ci il tarixdə yenilənmiş 115 N°-li lisenziya əsasında fəaliyyət göstərir.

## 2016-cı ilin sonuna Əsas Göstəricilər (mln. AZN)

| Göstəricilər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Aktivlər | 217,1 | 244,3 | 316,9 | 517,7 | 508,3 |
| Kredit Portfeli | 161,3 | 177,6 | 218,2 | 280,8 | 272,8 |
| Əmanət Portfeli | 102,8 | 108,2 | 143,8 | 246,9 | 274,6 |
| Müddətli əmanətlər | 49,7 | 76 | 89,1 | 149,3 | 142,0 |
| Məcmu kapital | 31,9 | 50,5 | 55,4 | 53,3 | 54,9 |
| Səhmdar Kapitalı | 30 | 44 | 47 | 50 | 55,0 |
| Gəlir | 23,3 | 27,9 | 33,2 | 39,5 | 37,2 |
| Xərc | 19,3 | 23,1 | 26,2 | 40,8 | 50,5 |
| Mənfəət | 4 | 4,8 | 7 | -1,3 | -13,3 |

## Səhmdarlarımız

| Göstəricilər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Səhmdarların ümumi sayı, | 27 | 28 | 27 | 27 | 27 |
| o cümlədən: | | | | | |
| hüquqi şəxslər | 5 | 6 | 6 | 6 | 6 |
| fiziki şəxslər, | 22 | 22 | 21 | 21 | 21 |
| o cümlədən: | | | | | |
| bankın işçiləri | 5 | 4 | 4 | 4 | 5 |
| Səhmdarların nizamnamə kapitalında payı (%), | | | | | |
| o cümlədən: | | | | | |
| hüquqi şəxslər, | 19,41 | 29,11 | 22,2 | 29,2 | 28,4 |
| o cümlədən: | | | | | |
| qeyri-rezident hüquqi şəxslər | - | 7,4 | 7 | 7 | 6,34 |
| fiziki şəxslər, | 80,59 | 70,89 | 77,8 | 70,8 | 71,6 |
| o cümlədən: | | | | | |
| bankın işçiləri | 21,95 | 17,98 | 18,2 | 18,2 | 18,7 |
| Səhmdarlarımıza ödədiyimiz divident | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
| | 12,3% | 11% | 12,3% | - | - |

## İşçilərimiz

| Göstəricilər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| İşçilərimizin ümumi sayı, | 327 | 372 | 464 | 476 | 403 |
| o cümlədən: | | | | | |
| baş ofis | 112 | 129 | 157 | 177 | 183 |
| filiallar | 179 | 211 | 277 | 272 | 220 |
| mübadilə şöbələri | 36 | 32 | 30 | 27 | 0 |

## Xidmət Şəbəkəmiz

| Göstəricilər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Filialların sayı, | 12 | 12 | 13 | 14 | 14 |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | 6 | 6 | 6 | 6 | 6 |
| regionlarda | 6 | 6 | 7 | 8 | 8 |
| Şöbələrin sayı, | 1 | 1 | 1 | 1 | 1 |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | | | | | |
| regionlarda | 1 | 1 | 1 | 1 | 1 |
| Bankomatların sayı, | 20 | 21 | 22 | 26 | 28 |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | 12 | 13 | 13 | 16 | 18 |
| regionlarda | 8 | 8 | 9 | 10 | 10 |
| POS-terminalların sayı, | 262 | 210 | 162 | 159 | 158 |
| o cümlədən: | | | | | |
| Bakı şəhərində | 232 | 186 | 135 | 132 | 131 |
| regionlarda | 30 | 24 | 27 | 27 | 27 |
| Törəmə qurumlarımız | 1 | 1 | 1 | 1 | 1 |

## Kapital İnvestisiyalarımız

| Göstəricilər | 2012 | 2013 | 2014 | 2015 | 2016 |
|---|---|---|---|---|---|
| Azər-TürkBank ASC | 4% | 4% | - | - | - |
| Başak İnam Sığorta Şirkəti | 8,33% | 8,33% | 8,33% | 8,33% | 8,33% |
| Milli Kart MMC Prossesinq Mərkəzi | 2,4% | 2,4% | 2,4% | 2,4% | 2,4% |
| TuranLizinq MMC | 100% | 100% | 100% | 100% | 100% |

**BEYNƏLXALQ AUDITORLARIMIZ**: KPMG, DELOITTE & TOUCHE VƏ PRICEWATERHOUSECOOPERS




1992- AZƏRBAYCAN RESPUBLİKASI
UNESCO-YA ÜZV QƏBUL EDİLDİ.

# 2016-CI İL ÜZRƏ ƏLAMƏTDAR HADİSƏLƏR

- Bank Mərkəzi Bank tərəfindən 2015-ci ilin yekunlarına görə "Elektron bankçılıq xidmətlərində lider bank" nominasiyası üzrə qalib seçilmişdir;
- Facebook istifadəçiləri üçün "TuranBank - 24 il" adı altında müsabiqə keçirilmişdir;
- Bank 24 illik fəaliyyətini qeyd etmişdir;
- Bank müştərilərə Tax Free xidmətini təklif etməyə başlamışdır;
- Bank lisenziyalaşdırılmış "Microsoft Windows 10" əməliyyat sistemi və "Microsoft Office 2016" proqram təminatını tətbiq etmişdir;
- Bank ABŞ-ın USAID təşkilatı ilə birgə əməkdaşlarına təlim kursları keçirmişdir;
- Bank Azərbaycan Mikromaliyyə Assosiasiyasının təsis etdiyi "İlin üzv təşkilatı -2016" nominasiyasının qalibi olmuşdur;
- Bank Global Climate Partnership Fondu ilə imzalanmış Enerji Səmərəliliyi layihələrinin maliyyələşdirilməsi məqsədilə 8 illik 10 mln. ABŞ dolları həcmində kredit sazişi üzrə nəzərdə tutulmuş texniki dəstək işlərini yekunlaşdırmışdır;
- Bank nizamnamə kapitalını artıraraq 55 milyon manata çatdırmışdır;
- Bank Polşanın SP Fondunun və AMFA əməkdaşlarının iştirakı ilə özünün SPI4 (sosial fəaliyyət indeksi) qiymətləndirilməsini aparmaq üçün Sosial Audit keçirmişdir;
- Bank əməkdaşları Azərbaycan Banklar Assosiasiyası tərəfindən təşkil olunmuş banklararası "Breyn rinq'' intellektual yarışmasına qatılmış, uğurlu nəticə göstərərək 16 bank arasında 4-cü yeri tutmuşlar.
- 2016-cı maliyyə ilinin kənar audit hesabatının hazırlanması üzrə KPMG şirkəti ilə saziş imzalanmışdır.
- KSM siyasəti çərçivəsində aşağıdakı tədbirlər həyata keçirilmişdir:
- Novruz bayramı, "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü", eləcə də Ramazan və Qurban bayramı münasibətilə uşaq evinə ziyarət, uşaqlar üçün teatr tamaşasının nümayişinin təşkili, eyni zamanda, uşaqlara hədiyyə paylanması və ərzaq yardımının göstərilməsi;
- Azərbaycan Diplomatik Akademiyası tərəfindən məzunlar üçün keçirilən "Karyera sərgisi" adlı əmək yarmarkasında iştirak;
- Regional idman mərkəzlərindən sayılan Göyəzən Futbol Klubuna, Göyəzən Güləş Məktəbinə və Ümummilli Lider Heydər Əliyevin 93 illik Yubileyi münasibətilə Qazax şəhərində keçirilmiş yeniyetmələrarası açıq güləş turnirinə sponsorluq;
- "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" ilə əlaqədar Bank əməkdaşlarının qanvermə aksiyasının təşkili;

# MÜŞAHİDƏ ŞURASI



**Fuad Musayev**
Müşahidə Şurasının sədri



**Gunter Eckel**
Müşahidə Şurasının üzvü



**Nazim Sadıqov**
Müşahidə Şurasının üzvü



**Akif Kərimov**
Müşahidə Şurasının üzvü



**Ramiz Qasımov**
Müşahidə Şurasının üzvü

# AUDİT KOMİTƏSİ



**Davud Quliyev**
Audit Komitəsinin üzvü



**Çingiz Ağayev**
Audit Komitəsinin sədri



**Famil Nəbiyev**
Audit Komitəsinin üzvü

# İDARƏ HEYƏTİ



**Rauf Kazımov**
İdarə Heyətinin sədri



**Fəzail Musayev**
İdarə Heyəti
sədrinin 1-ci müavini



**Məhəmməd Kələşov**
İdarə Heyətinin
sədr müavini



**Orxan Qarayev**
İdarə Heyətinin
üzvü



**Kəmalə Mustafayeva**
İdarə Heyətinin
üzvü

# BAŞ DİREKTORLAR



**Emil Mürsəlov**
Satış üzrə baş direktor



**Bəxtiyar Məmmədov**
İT üzrə baş direktor

## ÖN SÖZ

**Hörmətli Xanımlar və Cənablar!**

Sizi TuranBank adından salamlamaqdan məmnunluq hissi duyuram. Təqdim etdiyimiz hesabatın Bankımızın 2016-cı ildəki fəaliyyəti, strategiyalarımızın icrası, əldə etdiyimiz uğurlar, xidmətlərimiz və dəyərlərimiz haqqında Azərbaycan və ölkə xaricindən olan dəyərli tərəfdaş və müştərilərimiz üçün ətraflı məlumat əldə etmək imkanı yaradacağına ümidvaram.

2016-cı il dünya ölkələrinin iqtisadiyyatı və ona sıx inteqrasiya etmiş Azərbaycan üçün çətin sınaq dövrü olmuşdur. Hesabat ilində dövlət başçısı İlham Əliyevin rəhbərliyi altında bir sıra mühüm sənədlər qəbul olunaraq icraya yönəldilmiş, struktur islahatları və iqtisadiyyatın neft amilindən asılılığının azaldılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir ki, bunun da nəticəsində neftin qiymətinin kəskin enməsinin doğurduğu çətinliklərə baxmayaraq, Azərbaycanda sosial-iqtisadi inkişaf davam etmiş, nəzərdə tutulmuş sosial proqramlar, infrastruktur layihələri uğurla icra olunmuşdur.

Respublikamızda biznes və investisiya mühitinin yaxşılaşdırılması ilə bağlı həyata keçirilən sistemli tədbirlər, ötən ilin sonlarında sahibkarlığın inkişafı ilə bağlı verilmiş mühüm qərarlar artıq öz bəhrəsini verməkdədir. Təsadüfi deyil ki, hesabat ilində qeyri-neft sektorunun ölkə iqtisadyyatında rolu nəzərəçarpacaq dərəcədə artmışdır. Belə ki, 2016-cı ildə ölkədə istehsal olunmuş 59987,7 mln. manat Ümumi Daxili Məhsulun 39403,1 mln. manatı, yəni 65,7%-i iqtisadiyyatın qeyri-neft sahələrinin, 34,3%-i (20584,6 mln. manat) isə neft-qaz sektorunun payına düşmüşdür.

Hesabat ilində idxaldan asılılığın azaldılması və qeyri-neft məhsullarının ixracının genişləndirilməsi istiqamətində atılan addımlar bu sahələrin hökümətin sosial-iqtisadi siyasətinin əsas əhatə dairələrindən biri olduğunu sübut edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 oktyabr 2016-cı il tarixli müvafiq fərmanı ilə təsdiqlənmiş xarici ölkələrə ixrac missiyalarının təşkili, xarici bazarların araşdırılması və marketinq fəaliyyəti və “Made in Azerbaijan” brendinin xarici bazarlarda təşviqi ilə bağlı qaydalar ölkədə istehsal olunan yerli mənşəli məhsulların ixracının, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının genişləndirilməsi istiqamətində atılmış mühüm addım olmuşdur.

Hesabat ilində dövlət başçısı İlham Əliyev Azərbaycanda iqtisadiyyatın sürətli inkişafı, qeyri-neft sektorunun dirçəlməsi baxımından tarixi əhəmiyyətə malik olan digər sənədi - “Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələrinin təsdiq edilməsi haqqında” fərmanı imzalamışdır. Strateji yol xəritələri 2016-2020-ci illər üçün iqtisadi inkişaf strategiyasını və tədbirlər planını, 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxışı və 2025-ci ildən sonrakı dövrə hədəf baxışını özündə əks etdirir. Bu sənəddə inkişaf etdirilməsi nəzərdə tutulan 11 sektordan 6-sı bilavasitə real sektorla, o cümlədən neft-qaz və kimya məhsullarının, kənd təsərrüfatı məhsullarının istehsalı, turizm sektorunun inkişafı ilə bağlıdır. Maliyyə-bank sektorunun inkişafını da nəzərdə tutan strateji yol xəritəsi TuranBank da daxil olmaqla yerli banklar qarşında iqtisadiyyatın şaxələndirilməsi və neftdən asılılığın aradan qaldırıl-

masına xidmət edən layihələrin dəstəklənməsi kimi vacib vəzifələr qoyur.

Hesabat ilində ölkənin qiymətli kağızlar bazarının, investisiya fondu, bank və sığorta fəaliyyəti sahələrinin, habelə ödəniş sistemlərinin çevikliyinin və şəffaflığının təmin olunması, eyni zamanda bu sahələrdə tənzimləmə və nəzarət sisteminin təkmilləşdirilməsi istiqamətində Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası publik hüquqi şəxs yaradılmışdır. Yeni qurum qarşısında dünya iqtisadiyyatının tərkib hissəsi olan ölkəmizin qlobal iqtisadi arenada baş verən proseslərə çevik reaksiya verməsi üçün ölkənin maliyyə sektorunun dayanıqlığını təmin etmək və bu sahədə nəzarət tədbirlərini gücləndirmək kimi tapşırıqlar qoyulmuşdur. Fəaliyyətə başladığı dövrdən Palata tərəfindən bank sektorunun sağlamlaşdırılması istiqamətində atılan addımlar, aparılan kapitalizasiya tədbirləri nəticəsində sektorda stabilləşmə əldə olunmuşdur.

Qeyd etmək istərdim ki, hesabat ilində Bankımız öz inkişafının yeni mərhələsinə qədəm qoymuşdur. Belə ki, Bank artıq 2016-2019-cu illəri əhatə edən yeni Strateji Plan üzrə öz fəaliyyətini həyata keçirməyə başlamışdır. Bu dövrdə Bank təkmil "institusional baza"nı beynəlxalq təcrübəyə müvafiq olaraq mütəmadi inkişaf etdirməyi planlaşdırmış, mütərəqqi bank texnologiyalarının tətbiqi ilə satış şəbəkəsinin səmərəliliyini, aktivlərinin keyfiyyətinin yüksəldilməsi ilə bərabər Bank kapitalının davamlı artımı, xarici investorların Bankın kapitalına daha geniş cəlbi kimi hədəfləri müəyyənləşdirmişdir.

TuranBank ölkənin bank sektoru üçün keşməkeşli bir dövr olan hesabat ilini ciddi itkilərsiz başa vurmuş, bundan əlavə, real sektorun dəstəklənməsi istiqamətində üzərinə düşən öhdəliyi yerinə yetirməkdə davam etmişdir.

Hesabat ilində Bankın aktivləri 508,3 mln. manat, kredit portfeli 272,8 mln. manat, müştərilər üzrə depozit portfeli isə 274,6 mln. manat təşkil etmişdir.

Hesabat ilində bir sıra yerli bankların fəaliyyətində baş verən böhran fonunda TuranBank problemli kreditlərin idarə olunan səviyyədə saxlanılmasına nail olmuş, kapitalını artırmaqla ümumilikdə öz maliyyə vəziyyətinin dayanıqlığını təmin etmişdir. Hesabat ilinin sonuna Bankın nizamnamə kapitalı 2015-ci illə müqayisədə 10% artırılaraq 55 mln. manata, məcmu kapitalı isə 54,9 mln. manata çatdırılmışdır.

Dövlət başçısının ölkənin real sektorunun banklar tərəfindən dəstəklənməsi ilə bağlı çağrışını əldə rəhbər edən Bankımız hesabat ilində bu istiqamətdə layihələrin icrasını davam etmişdir. Yerli qurumlardan Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti ilə yanaşı, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID), BMK (IFC), QDTİB (BSTDB), ÖSİİK (ICD), CommerzBank, Eco Ticarət və İnkişaf Bankı, BCP, ResponsAbility Investment AG, Cyrano Management kimi nüfuzlu beynəlxalq maliyyə institutları ilə birgə həyata keçirilən layihələr çərçivəsində cəlb olunmuş güzəştli maliyyə vəsaitləri məhz ölkə üçün önəmli olan qeyri-neft sektorunun inkişafına yönəldilmişdir.

Hesabat ili ərzində ümumi həcmi 272,8 mln. manata çatan Bankın kredit portfelində adı çəkilən sahələrə ayrılmış və biznesin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitlərin ümumi həcmi 2015-ci illə müqayisədə 1,9%-dək artaraq 228,9 mln. manat təşkil etmişdir. Bu Bankın kredit portfelinin 83,9%-nə bərabər olmuşdur. Kredit portfelinin 132,6 mln. manatını korporativ kreditlər, 86,5 mln. manatını kiçik və orta biznes kreditləri, 9,8 mln. manatını isə mikrokreditlər təşkil etmişdir. Bankımızın biznesin inkişafına yönəldilən, o cümlədən dövlət proqramları vəsaitləri də daxil olmaqla illik faiz dərəcəsi 6%-dən başlayan sərfəli biznes kreditləri hazırda özəl sektor üçün ciddi dəstəkdir.

Müştəri yönümlü olan TuranBank hesabat ilində bir daha öz müştərilərinə qarşı loyallığını sübut etmişdir. Belə ki, Mərkəzi Bankın məzənnə rejimində baş verən dəyişikliklər səbəbindən xarici valyutada olan kreditlərin ödənişində çətinliklərlə üzləşmiş müştərilərimizin xüsusi kampaniya çərçivəsində kreditlərinin restrukturizasiyası aparılmış, xarici valyutada olan kreditlərini tam ödəyən müştərilər üçün əlverişli mübadilə məzənnəsi təklif olunmuş, kredit borcunun müəyyən hissəsini ödəyənlər üçün yerdə qalan kredit məbləğini əlverişli məzənnə ilə manata çevirmək imkanı yaradılmışdır.

TuranBank hesabat ilində satış nöqtələrində müştərilər üçün rahat mühit yaratmaq, onların az vaxt sərf etməklə keyfiyyətli bank xidmətlərindən yararlanmalarını təmin etmək və ümumilikdə xidmət səviyyəsini təkmilləşdirmək üzərində çalışmışdır. Bundan əlavə, Bank öz xidmət şəbəkəsindəki kompüterləri "Windows 10" əməliyyat sistemi və lisenziyalaşdırılmış "Microsoft Office 2016" proqram təminatına keçirmiş, müştəri məmnuniyyətini təmin etmək məqsədilə “ATM sharing” layihəsi üzrə Rabitəbank, Caspian Development Bank və Muğanbankla imzaladığı müqavilə çərçivəsində Bankın müştərilərinə adı çəkilən bankların ATM-lərindən kredit və debet kartları ilə nağd pul çıxarılması üçün komisyon haqqını 1%-ə endirmişdir. Bununla yanaşı, Bankımız ölkənin bank sektorunda yeni xidmət olan Tax Free xidmətini təklif etməklə Avropaya səfər etmiş Bank müştərilərinə xarici ölkələrdə alış-veriş zamanı ödədikləri ƏDV-ni operativ şəkildə geri almaq imkanı yaratmışdır.

Bankımızın müştərilərinə məhsul və xidmətlərindən təhlükəsiz və banka gəlmədən vaxta maksimum dərəcədə qənaətlə istifadə etmələrinə imkan verən layihələri diqqətdən kənarda qalmamışdır. Belə ki, TuranBank Mərkəzi Bank tərəfindən 2015-ci ilin yekunlarına görə “Elektron bankçılıq xidmətlərində lider bank” nominasiyası üzrə seçilmiş 3 qalib bankdan biri olmuşdur. Bu uğur Bankın ölkədə elektron ödəniş alətlərindən istifadənin kütləviləşdirilməsi və əhalinin elektron ödəniş xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi istiqamətində gördüyü işlər müqabilində mümkün olmuşdur.

Bundan əlavə, Azərbaycan Mikromaliyyə Assosiasiyasının (AMFA) üzv təşkilatlar arasında uğurlu fəaliyyəti ilə seçilən qurumu müəyyən etmək üçün keçirdiyi sorğunun nəticələrinə əsasən Bankımız qurumun "2016-cı ilin üzv təşkilatı" nominasiyasının qalibi olmuşdur.

Hesabat ilində Banka yüksək ixtisaslı mütəxəssislərin cəlb olunması, müxtəlif təlimlər vasitəsilə ilə mövcud əməkdaşlarımızın bankçılığa aid son texnologiyaları dərindən mənimsəməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi üçün Bankın Tədris Mərkəzi tərəfindən müxtəlif təlimlər həyata keçirilmişdir.

Ötən illərdə Bankımızın əldə etdiyi nailiyyətlərdən ilhamlanaraq, qarşıdan gələn dövrdə də uğurlarımızı davam etdirəcəyimizə və həyata keçirdiyimiz hər bir layihədə müştəri və tərəfdaşlarımızın keyfiyyət gözləntilərini aşacağımıza əminəm.

Fuad Musayev
TuranBank ASC-nin Müşahidə Şurasının Sədri




1994 – XƏZƏR DƏNİZİNİN AZƏRBAYCAN SEKTORUNDA "AZƏRİ", "ÇIRAQ", "GÜNƏŞLİ" YATAQLARININ BİRGƏ İŞLƏNMƏSİ VƏ HASİL OLUNAN NEFTİN PAY ŞƏKLİNDƏ BÖLÜŞDÜRÜLMƏSİ HAQQINDA DÜNYANIN 13 ƏN İRİ NEFT ŞİRKƏTİ İLƏ "ƏSRİN MÜQAVİLƏSİ" İMZALANDI.




## 1995 – ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN TƏŞƏBBÜSÜ İLƏ ÜMUMXALQ REFERENDUMU İLƏ MÜSTƏQİL AZƏRBAYCANIN İLK KONSTİTUSİYASININ QƏBUL EDİLMƏSİ VƏ İLK DEMOKRATİK PARLAMENT SEÇKİLƏRİNİN KEÇİRİLMƏSİ

# MAKROİQTİSADİYYAT VƏ BANK SEKTORU

2016-cı ildə dünya iqtisadiyyatında böhranlı vəziyyət davam etmiş və bu böhran təbii resurslarla zəngin olan ölkəmizin makroiqtisadi və maliyyə sabitliyinə təsirsiz ötüşməmişdir. Lakin ölkədə struktur və institusional islahatların sürətləndirilməsi, fəal iqtisadi siyasətin həyata keçirilməsi, qeyri-neft məhsullarının ixracının artırılması və sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində Azərbaycan qlobal proseslərin təsirindən qorunmağa, itkilərini minimuma endirməyə və əhalinin sosial müdafiəsinin təmin edilməsinə nail ola bilmişdir.

Bununla yanaşı, dövlət başçısı İlham Əliyevin fərmanları ilə təsdiqlənmiş və qlobal iqtisadiyyat və maliyyə bazarlarında müşahidə edilən proseslərə çevik adaptasiya, postneft iqtisadi inkişaf modelinin dəstəklənməsinə yönəlmiş yeni strateji hədəflər və prioritetləri özündə əks etdirən milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri, ölkənin ixracyönümlü məhsul istehsalçılarının "Made in Azerbaijan" brendi ilə xarici bazarlara çıxışının dəstəklənməsini nəzərdə tutan qaydalar ölkəmizin gələcək inkişafının təməlini qoymuşdur.

Azərbaycanın bu sınaq dövründə nüfuzlu beynəlxalq təşkilatların reytinqində irəliləməsi ölkəmizdə aparılan iqtisadi siyasətin, islahatların öz bəhrəsini verdiyini sübut edir. Belə ki, ölkəmiz 2015-2016-cı illərə görə Qlobal Rəqabətqabiliyyətlilik Hesabatında tutduğu yerlə müqayisədə 3 pillə irəliləyərək, 2016-2017-ci illərə görə olan hesabatda 138 dövlət arasında 4,55 balla 37-ci yeri tutmuşdur.

Hesabat ilində ölkədə 59987,7 mln. manatlıq və ya əvvəlki ilə nisbətən 3,8% az ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. 2016-cı ilin iqtisadi göstəricilərini təhlil edərkən məlum olur ki, ÜDM-in azalmasının əsas səbəbi dünya bazarlarında neftin qiymətinin aşağı düşməsi və bundan irəli gələn dövlətin infrastruktur layihələrinə investisiyalarının azalmasıdır. Belə ki, tikinti sektorunda istehsalın 2015-ci illə müqayisədə 27,6% azalması bu əsas makroiqtisadi göstəricidə öz əksini tapmışdır.

ÜDM aşağı düşsə də digər önəmli göstəricilərdə artım baş vermişdir. Hesabat dövründə informasiya və rabitə sahələrində ÜDM istehsalı 4,5%, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 2,6%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahələrində 1,5%, sənayedə 0,4%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində isə 0,1% artmışdır.

ÜDM–in 10836,9 mln. manatı iqtisadiyyatın digər sahələrində istehsal edilmiş, məhsula və idxala xalis vergilər 4591,2 mln. manat təşkil etmişdir.

Hesabat ilində ÜDM-in 39403,1 mln. manatı, yəni 65,7%-i iqtisadiyyatın qeyri-neft sahələrinin, 34,3%-i (20584,6 mln. manatı) isə neft-qaz sektorunun payına düşmüşdür. Qeyd etmək yerinə düşər ki, ölkəmizdə qeyri-neft sənaye istehsalı keçən il 5% artmışdır ki, bu da böhranlı ildə aparılan islahatların nəticəsi olaraq qeyri-neft sənayesi üçün çox böyük göstəricidir. ÜDM-in əhalinin hər nəfərinə düşən payı 6223,8 manat olmuşdur.

## 2016-CI İLDƏ ÜDM-in STRUKTURU, %




Dünya Bankı tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən "Doing Business 2017" hesabatında Azərbaycan dünyada il ərzində 3 və daha artıq islahatı həyata keçirmiş 29 ölkə arasında yer almışdır.

Hesabat ilində sosial siyasət hökümətin əsas prioritetlərindən biri olmuşdur. Təsadüfi deyil ki, 2016-cı ildə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 6,9% artaraq 498,6 manat təşkil etmişdir. Hesabat ilində əmək pensiyalarının orta aylıq məbləği ilin əvvəlinə nisbətən 8,2% artaraq 192,18 manata, o cümlədən yaşa görə əmək pensiyasının orta aylıq məbləği 213,81 manata çatmışdır.

Hesabat ilində əvvəlki illə müqayisədə əhalinin gəlirləri nominal ifadədə 8,7% artaraq 45395,1 mln. manata çatmışdır. Gəlirlərin 76,3%-i son istehlak xərclərinə, 8,4%-i vergilərin, sığorta və üzvlük haqlarının, 2,9%-i kreditlər üzrə faizlərin ödənilməsinə sərf edilmiş, 12,4%-i isə yığıma yönəldilmişdir.

Azərbaycan işsizlik və yoxsulluğun artımının qarşısının alınmasında digər ölkələrlə müqayisədə əhəmiyyətli nəticəyə nail olmuşdur. Hesabat ilində ölkədə 148 mini daimi olmaqla, 190 minə yaxın yeni iş yerinin açılması iqtisadi fəallığın və əmək bazarının qeyd olunan böhranın mənfi təsirlərindən qorunmasında mühüm faktor olmuşdur.

Ölkədə aparılan uğurlu iqtisadi siyasətin nəticəsində formalaşmış münbit sərmayə iqlimi qlobal iqtisadi böhran fonunda belə iqtisadiyyata iri həcmdə investisiya cəlb etməyə imkan vermişdir. Belə ki, hesabat ilində ölkə iqtisadiyyatına cəlb olunmuş 11,7 mlrd. ABŞ dolları həcmində investisiyanın 8 mlrd. ABŞ dolları xarici, 3,7 mlrd. ABŞ dolları isə daxili sərmayənin payına düşmüşdür.

Hesabat ilində ölkənin strateji valyuta ehtiyatlarının zəruri həcmdə qorunması təmin edilmişdir. Belə ki, 2016-cı ilin sonuna strateji valyuta ehtiyatlarının ümumi həcmi 37.121 mlrd. ABŞ dolları təşkil etmişdir. Bunun 89,29%-i və yaxud 33.147 mlrd. ABŞ dolları Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF), 10,71%-i və yaxud 3974 mln. ABŞ dolları isə Mərkəzi Bankın (AMB) payına düşmüşdür. Strateji valyuta ehtiyatı xarici dövlət borcunu 4,1 dəfə üstələmişdir.

Qeyd edək ki, 2016-cı il ərzində Azərbaycanın məcmu valyuta ehtiyatları cəmi 1469 mln. ABŞ dolları və yaxud 3,81% azalmışdır. Bu isə çətin bir dövrdə hökümətin ölkənin valyuta ehtiyatlarını qoruyub saxlamağa müvəffəq olduğunu bariz göstərir.

Hesabat ilində xarici ticarət dövriyyəsi 21650,8 mln. ABŞ dolları, o cümlədən ixracın dəyəri 13118,4 mln. ABŞ dolları, idxalın dəyəri 8532,4 mln. ABŞ dolları təşkil etmiş, nəticədə 4586 mln. ABŞ dolları müsbət ticarət saldosu yaranmışdır.

Hesabat ilində əvvəlki ilə nisbətən istehlak məhsullarının və xidmətlərin qiymətləri 12,4%, o cümlədən ərzaq məhsullarının qiymətləri 14,7%, qeyri-ərzaq məhsullarının qiymətləri 16,7%, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri isə 5,8% artmışdır.

Maliyyə Nazirliyinin məlumatlarına əsasən, 2016-cı ildə dövlət büdcəsinə 17501,2 mln. manat vəsait daxil olmuş, büdcədən 17742,4 mln. manat vəsait xərclənmiş, büdcənin icrasında yaranmış 241,2 mln. manatlıq kəsir ÜDM-in 0,4%-i səviyyəsində olmuşdur.

Hesabat ilində Mərkəzi Bankın pul siyasəti il ərzində makroiqtisadi sabitliyin başlıca göstəricisi olan qiymətlərin nisbi sabitliyinə və bu əsasda milli valyutaya olan etimadın gücləndirilməsinə yönəldilmişdir.

Hesabat ili 11 yerli bankın lisenziyalarının ləğv edilməsi ilə yadda qalmışdır. Bu addım problemli və adekvat kapitallaşmamış bankların sistemdən kənarlaşdırılması vasitəsilə bank sektorunda risklərin azaldılması, maliyyə dayanıqlığının gücləndirilməsi, etimadın artırılması və bütövlükdə maliyyə sektorunun inkişafına istiqamətlənmişdir.

Hesabat dövrünün yekunlarına görə Azərbaycanda bank fəaliyyətinin həyata keçirilməsi üçün ümumilikdə 177 maliyyə təşkilatının lisenziyası olmuşdur. Bu maliyyə təşkilatlarından 30-u özəl, 2-i dövlət bankı, 144-ü bank olmayan kredit təşkilatı və 1-i digər maliyyə təşkilatı (Azərpoçt MMC) olmuşdur.

Hesabat ilində ölkədə 2 dövlət bankı fəaliyyət göstərmiş və xarici kapitala malik bankların sayı 15-ə bərabər olmuşdur. Xarici kapitallı bankların əksəriyyətində (9 bank) xarici kapital nizamnamə kapitalının 50%-dən az olan hissəsini təşkil etmişdir. Hesabat ilində ümumilikdə bankların 569 filialı, 131 şöbəsi, bank olmayan kredit təşkilatlarının 214 filialı fəaliyyət göstərmişdir.

Hesabat ilində bank sektorunun aktivləri 31,4 mlrd. manat təşkil etmişdir.

Kredit təşkilatları tərəfindən 2016-cı ildə iqtisadiyyata qoyulan kreditlərin həcmi 16,4 mlrd. manata çatmışdır.

**İQTİSADİYYATA KREDİT QOYULUŞLARI VƏ BANK SEKTORUNUN AKTİVLƏRİ, MLRD. AZN**




Kreditlərin əksər hissəsi, yəni 62,2%-i ölkədə fəaliyyət göstərən özəl bankların (10222 mln. manat) hesabına verilmişdir. Bu göstəricidə dövlət banklarının payı 35% (5749,2 mln. manat), qeyri-bank kredit təşkilatlarının payı isə 2,9% (473,4 mln. manat) təşkil etmişdir.

Statistik məlumatlar göstərir ki, hesabat ilində kredit qoyuluşlarının 8663,1 mln. manatı milli valyutada, 7781,4 mln. manatı isə xarici valyutada həyata keçirilmişdir. Həm milli, həm də xarici valyutada iqtisadiyyata yönləndirilən kreditlərin əsas hissəsini - 5665,9 mln. manatını (76%) uzunmüddətli kreditlər təşkil etmişdir. Hesabat ilində real sektora istiqamətləndirilən kreditlərin 35,6%-i ev təsərrüfatlarına, 15%-i ticarət və xidmət sahələrinə, 11,6%-i inşaat və əmlak sahəsinə, 7,7%-i sənaye və istehsala, 7,7%-i nəqliyyat və rabitə sahələrinə, 3,6%-i energetika, kimya və təbii ehtiyatlar sahələrinə, 2,7%-i kənd təsərrüfatı və emal sahələrinə, 16,1%-i isə digər sahələrə ayrılmışdır




**KREDİT QOYULUŞLARININ SAHƏLƏR ÜZRƏ STRUKTURU, %**

Hesabat dövründə kredit təşkilatlarında yerləşdirilmiş depozit və əmanətlərin ümumi həcmi 22,1 mlrd. manat olmuşdur. Kredit təşkilatlarında fiziki şəxslər tərəfindən yerləşdirilən əmanət və depozitlər 7,4 mlrd. manat təşkil etmişdir. 2016-cı il ərzində fiziki şəxslərin manatla əmanətləri 6,8% artdığı halda xarici valyutada əmanətləri 26,4% azalmışdır. Nəticədə, fiziki şəxslərin depozitlərinin dollarlaşması səviyyəsi ilin əvvəlindəki 85%-dən 79,6%-ə enmişdir.

Hesabat ilində bank sektoru üzrə digər cəlbetmələrə maliyyə institutlarının kreditləri, həmçinin banklar tərəfindən buraxılmış qiymətli kağızlar aid etmək olar. Belə ki, hesabat ilinin sonuna maliyyə institutlarından cəlbetmələrin qalığı 3,36 mlrd. manat, eləcə də emissiya olunmuş qiymətli kağızlar vasitəsilə cəlbetmələr üzrə isə qalıq 387,2 mln. manat təşkil etmişdir.

2016-cı ildə dövriyyədə olan ödəniş kartlarının sayı 5334 min ədəd təşkil etmişdir ki, bunların da 4703 min ədədi debet kartları, 631 min ədədi isə kredit kartlarının payına düşmüşdür. Bu dövr ərzində ödəniş kartları (debet və kredit kartları) vasitəsilə həyata keçirilən əməliyyatların ümumi həcmi 1299 mln. manata çatmışdır. Aparılan əməliyyatların 91%-nin (1185 mln. manat) Azərbaycanda həyata keçirilməsi ölkə ərazisində nağdsız hesablaşmaların həcminin getdikcə artdığından xəbər verir.

# KREDİTLƏŞMƏ

Hesabat ilində qlobal böhranın ölkənin maliyyə sisteminə mənfi təsiri şəraitində kredit portfelinin keyfiyyətini təmin etmək üçün Bank əhali, mikro və biznes istiqamətində kreditləşmə fəaliyyətini böhran vəziyyəti üçün xüsusi olaraq hazırlanmış məsuliyyətli kreditləşmə siyasəti çərçivəsində həyata keçirmişdir. Bu zaman müştərilərin maliyyə vəziyyətinin, onların ödəmə qabiliyyətinin qiymətləndirilməsi prosesinə diqqət artırılmış, borcalanların maliyyə öhdəliyi ilə həddən artıq yüklənməsinin qarşısı alınmışdır.

Hesabat dövrünün yekunlarına əsasən Bankın kredit portfeli 272,8 mln. manat təşkil etmişdir. Ümumilikdə hesabat dövründə Bankın kreditləşmə fəaliyyəti əsasən fiziki şəxslərin kreditləşməsi, mikromaliyyə, KOS, biznes və layihə kreditləri kimi sahələri əhatə etmişdir.




**KREDİT PORTFELİ SAHƏLƏR ÜZRƏ, %**

Hesabat ilində pərakəndə bankçılıq sahəsi üzrə kreditləşmə portfeli 43,9 mln. manat təşkil etmişdir ki, bu da kredit portfelinin 16,1%-i deməkdir.

Hesabat ilinin sonuna pərakəndə bankçılıq istiqamətinin aparıcı elementlərdən biri olan ipoteka kreditləri üzrə portfelin qalıq məbləği 31,7 mln. manat təşkil etməklə məcmu kredit portfelində 11,6% xüsusi çəkiyə malik olmuşdur.

Hesabat ilinin sonuna kredit portfelinin 132,6 mln. manatını korporativ kreditlər, 86,5 mln. manatını kiçik və orta biznes kreditləri, 9,8 mln. manatını isə mikrokreditlər təşkil etmişdir.

Kredit portfelində biznes kreditlərinin 31,2 mln. manatını və ya 13,6%-ni layihə kreditləri təşkil etmişdir. Belə ki, hesabat ilində Sahibkarlığa Kömək Milli Fondu Layihəsi çərçivəsində Bank tərəfindən 4 mln. manat, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Layihələri və Kreditlərinin İdarə Edilməsi üzrə Dövlət Xidməti vəsaiti hesabına 1,9 mln. manat və Dünya Bankı ilə birgə icra olunan “Kənd Təsərrüfatının Rəqabət Qabiliyyətinin Gücləndirilməsi Layihəsi” üzrə 3,6 mln. manat həcmində kredit verilmişdir. Bank bu qəbildən olan layihələrdə gələcəkdə də

aktiv iştirakı ilə sahibkarlıq subyektlərinin daha sərfəli maliyyə resurslarına çıxışına dəstək olmağı planlaşdırır.




**KREDİT PORTFELİ KREDİTLƏRİN TƏYİNATI ÜZRƏ, %**










1996 - "ŞAHDƏNİZ" NEFT-QAZ YATAĞININ MÜŞTƏRƏK İŞLƏNMƏSİ BARƏDƏ ARDNŞ-I İLƏ DÜNYANIN BİR NEÇƏ BÖYÜK NEFT ŞİRKƏTİ ARASINDA MÜQAVİLƏNİN İMZALANMASI

# MÜŞTƏRİ XİDMƏTLƏRİ VƏ MARKETİNQ FƏALİYYƏTİ

Hesabat ilində sayı 43 minə çatan iri müştəri bazasına, 28 ATM-ə malik Bank ölkənin paytaxtı və əsas regional mərkəzlərində yerləşən 16 satış nöqtəsində çalışan peşəkar kollektivi ilə əhali və təsərrüfat subyektlərini yüksək keyfiyyətli bank xidmətləri ilə təmin etmişdir.

Bu dövr ərzində Bank öz kampaniyaları çərçivəsində kreditləri xarici valyutada olan və ödənişlərini vaxtında ödəməyə çətinlik çəkən müştəri kateqoriyası üçün güzəştlərin tətbiqini davam etdirmişdir. Bu güzəştlər sırasında kreditin ödəniş müddətinin uzadılması, müştərinin imkanına uyğun yeni ödəniş qrafikinin tərtib edilməsi və xarici valyutada olan kredit məbləğinin əlverişli məzənnə ilə manata çevrilməsi aiddir.

2016-2019-cu illəri əhatə edən Strateji Plana uyğun olaraq Bank hesabat ilində mövcud satış şəbəkəsinin səmərəliliyini, aktivlərinin keyfiyyətinin yüksəldilməsi, kapitalının davamlı artımı, xarici investorların ölkə iqtisadiyyatına geniş cəlbi kimi planların icrası istiqamətində işlər görmüşdür.

Fəaliyyətinin əsas hədəfi müştəri məmnunluğu olan Bank hesabat ilində də müştərilərini yeni mütərəqqi xidmət növləri ilə sevindirmişdir. Belə ki, ötən il Bank Böyük Britaniyanın TaxFree4U şirkəti ilə imzaladığı müqavilə çərçivəsində müştərilərinə Tax Free xidmətini təklif etməyə başlamışdır. Bankın təklif etdiyi bu xidmət ən aşağı komisyon haqqı müqabilində müştərilərin Avropada etdikləri alış-verişlər üzrə tətbiq olunan əlavə dəyər vergisinin (ƏDV) qısa zaman ərzində müştəriyə geriyə qaytarılmasını təmin edir. Bu xidmət vasitəsilə Almaniya, Böyük Britaniya, Fransa, İtaliya və İspaniya kimi dövlətlərə səfər etmiş Bank müştəriləri həmin ölkələrdə alış-veriş zamanı ödədikləri ƏDV-ni operativ şəkildə geri almaq imkanı qazanırlar.

Hesabat ilində Bank müştəri məmnuniyyətini təmin etmək məqsədilə “ATM sharing” layihəsi üzrə Rabitəbank, Caspian Development Bank və Muğanbankla müqavilə bağlamışdır. Bu müqavilələrə əsasən, Bankın müştərilərinə adı çəkilən bankların ATM-lərindən kredit və debet kartları ilə nağd pul çıxarılması üçün (əmək haqqı kartları istisna olmaqla) komisyon 1,5%-dən 1%-ə endirilmişdir.

Hesabat ilində müştərilərə, onların ehtiyac və istəklərinə diqqəti daha da artırmaq məqsədilə Bankın məhsul və xidmətləri istehlakçılarının hüquqlarının müdafiəsi şöbəsi Bankın satış şəbəkələrində yerləşdirilmiş "Şikayət və Təklif" qutuları, Call-Center, Onlayn Konsultasiya, web-sayt və sosial şəbəkələrdəki səhifələri vasitəsilə daxil olan 1929 müraciəti araşdıraraq onları vaxtlı-vaxtında cavablandırmış, rəy və təkliflər əsasında müvafiq strukturlar müştərilərə göstərilən xidmət keyfiyyətinin, onlara təqdim olunan məhsulların çeşidinin və səmərəliliyinin artırılması istiqamətində təhlillər aparmışdır.

Hesabat dövrü ərzində depozit məhsulları bazarı mütəmadi araşdırılaraq Sirlər Xəzinəsi əmanət məhsullarının şərtləri müvafiq olaraq bazar konyukturasına uyğunlaşdırılmış, illik faiz dərəcələri yüksəldilmiş və ötən dövrlərdə olduğu kimi digər banklarla müqayisədə öz yüksək gəlirlilik həddini qoruyub saxlamışdır.

Hesabat ilində həyata keçirilən uğurlu layihələr sırasında Bankın rəsmi Facebook səhifəsinin izləyicilərinin sayını artırmaq, mövcud istifadəçilərin səhifəyə marağını yüksəltmək və beləliklə də onu müştərilərlə səmərəli kommunikasiya vasitəsinə çevirmək məqsədini daşıyan Bankın 24 illiyinə həsr olunmuş "TuranBank - 24 il" adlı müsabiqəni göstərmək olar. İştirakçılardan Banka ünvanlanmış ən mənalı, ahəngdar və orijinal təbrikin müəllifi olan 3 nəfər qalib seçilmiş və onların hər birinə pul mükafatı mədaxil olunmuş Bank kartları hədiyyə olunmuşdur.

Hesabat dövründə Bankın korporativ saytı, sosial şəbəkələrdəki səhifələrinin imkanlarından da geniş istifadə olunmaqla Bankın maliyyə göstəriciləri, məhsul və xidmətləri ilə bağlı məlumatların geniş oxucu kütləsinə çatdırılması təmin olunmuşdur.






2001 - AZƏRBAYCAN AVROPA ŞURASININ TAM HÜQUQLU ÜZVLÜYÜNƏ QƏBUL EDİLDİ.




2002 - AZƏRBAYCAN NATO-NUN PARLAMENT ASSAMBLEYASINA ASSOSİATİV ÜZVLÜYƏ QƏBUL EDİLDİ.




2006 - TÜRKİYƏNİN ARALIQ DƏNİZİ SAHİLİNDƏKİ CEYHAN LİMANINDA BAKI-TBİLİSİ-CEYHAN NEFT KƏMƏRİ İSTİSMARA VERİLDİ. NEFTLƏ YÜKLƏNMİŞ İLK TANKER BURADAN YOLA SALINDI.

# KORPORATİV İDARƏETMƏ VƏ SOSİAL MƏSULİYYƏT

Effektiv korporativ idarəetmə təcrübəsinə malik olması TuranBanka hesabat ilində müəyyən etdiyi strateji hədəflərə çatmağa, bank sektoru üçün ağır bir dövrü ciddi itkilərsiz başa vurmağa imkan vermişdir.

Hesabat ili ərzində Müşahidə Şurası tərəfindən səhmdarların 3 ümumi yığıncağı (SÜY) çağırılmışdır. Yığıncaqlar barədə kütləvi informasiya vasitələrində məlumat dərc edilmişdir. Bununla yanaşı, Bankın səhmdarlarının SÜY-da müzakirə ediləcək məsələlər haqqında zəruri olan məlumatları əldə etmələri təmin edilmişdir. Yığıncağın gündəliklərinin əsas mövzuları Bankın idarəetmə orqanlarının yenidən seçilməsi, nizamnamə kapitalının artırılması, Audit Komitəsinin hesabat ilinin yekunları ilə bağlı hesabatının müzakirəsi olmuşdur. Keçirilmiş yığıncaqlarda yetərsay əldə olunmuşdur.

Hesabat ilində Bankda korporativ idarəetmə üzrə vacib nəzarət orqanı olan Müşahidə Şurasının ümumilikdə 6 iclası keçirilmiş və bu zaman İdarə Heyətinin hesabatı, Bankın büdcəsi, əməliyyat planları, istehlakçıların müraciətləri və s. məsələlər əsas müzakirə mövzuları olmuşlar.

Hesabat ilində Bankda tətbiq olunan korporativ idarəetmə dəyərlərinə gündəlik fəaliyyət zamanı riayət olunmasına məsul olan İdarə Heyətinin 138 iclası keçirilmiş və iclaslarda ümumilikdə 271 məsələ müzakirə edilərək müvafiq qərarlar qəbul olunmuşdur.

Hesabat ilində qarşılaşdığı maliyyə çətinliklərinə baxmayaraq, TuranBank Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində bir sıra layihələrin icrasını davam etdirmişdir. Bunlara elm, təhsil, mədəniyyət, incəsənət, idman və sağlamlıq kimi sahələrin inkişafına dəstək verən aşağıdakı layihələr və sosial tədbirlər daxildir:

- Novruz bayramı, "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü", eləcə də Ramazan və Qurban bayramı münasibətilə uşaq evinə ziyarət, uşaqlar üçün teatr tamaşasının nümayişinin təşkili, eyni zamanda, uşaqlara hədiyyə paylanması və ərzaq yardımının göstərilməsi;
- Azərbaycan Diplomatik Akademiyası tərəfindən məzunlar üçün keçirilən "Karyera sərgisi" adlı əmək yarmarkasında iştirak;
- Regional idman mərkəzlərindən sayılan Göyəzən Futbol Klubuna, Göyəzən Güləş Məktəbinə və Ümummilli Lider Heydər Əliyevin 93 illik Yubileyi münasibətilə Qazax şəhərində keçirilmiş yeniyetmələrarası açıq güləş turnirinə sponsorluq;
- "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" ilə əlaqədar Bank əməkdaşlarının qanvermə aksiyasının təşkili;

Hesabat ilində də Bank kreditləşmə fəaliyyətində yüksək ekoloji və sosial əhəmiyyətli layihələrə üstünlük vermiş, eyni zamanda, ümumi kreditləşmə ilə bağlı qərarların qəbulu zamanı ekoloji risklərin minimuma endirilməsinə çalışmışdır. Belə ki, kreditləşmə fəaliyyətində aparılmış risk təhlilləri nəticəsində ətraf mühitə neqativ təsir edəcək layihələr müəyyənləşdirilmiş və onların maliyyələşdirilməsindən imtina edilmişdir.

Hesabat ilində Bank KSM siyasətinin müddəalarını əsas götürərək, sosial və ekoloji fəaliyyətində kağız, enerji və sudan qənaətlə istifadə olunmasına xüsusi diqqət yetirmiş, kağızlardan istifadə zamanı ikitərəfli çapa üstünlük vermişdir.

Hesabat dövründə Bank Polşanın SP Fondunun və AMFA-nın əməkdaşlarının iştirakı ilə özünün SPI4 (sosial fəaliyyət indeksi) qiymətləndirilməsini aparmaq üçün Sosial Audit keçirmişdir. Bu zaman Bankın öz müştərilərinə, işçilərinə, cəmiyyətə və həmçinin ətraf mühitə qarşı nə dərəcədə sosial məsuliyyətli olması aydınlaşdırılmış, Bankın "Korporativ Sosial Məsuliyyət", "Biznes etika" üzrə və digər istiqamətlərdə mövcud siyasət və qaydalarına nə dərəcədə əməl edilməsi yoxlanılmışdır. Qiymətləndirmənin nəticələri əsasında Bank üçün fəaliyyət planınının hazırlanması nəzərdə tutulmuşdur. Adı çəkilən layihənin əsas məqsədi Bankın sosial fəaliyyətini qabaqcıl təcrübələrin tətbiqi ilə inkişaf etdirməkdir.

Hesabat ilində Bank əməkdaşlarının sosial əhəmiyyət daşıyan layihələrə cəlbi diqqət mərkəzində olmuşdur. Belə ki, "1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü" ilə əlaqədar qan vermə aksiyası Bank əməkdaşlarının aktiv iştirakı ilə yadda qalmışdır.

Bankın əməkdaşlarının ailə üzvləri də diqqətdən kənar qalmamışdır. Hesabat ilində əməkdaşların övladları arasında "Bilik Günü" adlı yaradıcılıq müsabiqəsi təşkil olunmuşdur. Bu qəbildən olan tədbirləri keçirməkdə məqsəd Bankın uğurlu fəaliyyətinin əsası olan əməkdaşlar arasında mehriban münasibətləri formalaşdırmaq və vahid komanda ruhunu onlara aşılamaqdır.






2007 - BAKI-TBİLİSİ-QARS BEYNƏLXALQ DƏMİRYOLU XƏTTİNİN TİKİNTİSİNİN TƏMƏLİ QOYULUB. HƏR ÜÇ ÖLKƏNİN PREZİDENTLƏRİNİN İŞTİRAKI İLƏ GÜRCÜSTANIN MARABDA STANSİYASINDA AÇILIŞ MƏRASİMİ KEÇİRİLİB.

# RİSKLƏRİN İDARƏ EDİLMƏSİ

TuranBankda Risklərin İdarə Edilməsi Azərbaycan Respublikası Mərkəzi Bankının "Banklarda korporativ idarəetmə standartlarının tətbiqi Qaydaları"na, "Risklərin idarə edilməsi üzrə Standartlar"ına, Kredit təşkilatlarında risklərin idarə edilməsinə dair Bazel Komitəsinin tövsiyələrinə, Banklarda risklərin idarə edilməsi qaydalarına, Bankın Nizamnaməsinə, Strateji planına, mövcud qanunvericiliyə, Bankın "Risklərin idarə edilməsi siyasəti"nə, "Risklərin idarə edilməsi metodologiyası"na və bu sahə üzrə daxili qayda və prosedurlarına uyğun həyata keçirilir.

Bankda risklərin idarə edilməsinin əsas prinsipləri risk və gəlirlilik arasında müvafiq balansın təmin edilməsindən, bankın fəaliyyətinə mümkün mənfi təsiri azaltmaqdan və ən əsası mənfəətliliyini təhlükə altına qoymamaq üçün riskləri minimallaşdırmaqdan ibarətdir.

**Ümumilikdə TuranBankda risklər əsasən aşağıdakı qruplar üzrə təsnifləşdirilmişdir:**

1. Kredit
2. Bazar
3. Likvidlik
4. Əməliyyat

**Kredit riskinin idarə edilməsi iki metodla həyata keçirilir:**

**Borc məbləği səviyyəsində riskin idarəedilməsi metodu**

- Potensial borcalanın ödəmə qabiliyyətinin kreditin növündən asılı olaraq kredit skorinq modeli və ya memorandum forması tərtib edilməklə analiz edilməsi;
- Kreditin qiymətləndirilməsi və struktur parametrlərinin müəyyənləşdirilməsi;
- Hüquqi rəylərə əməl edilməklə kredit əməliyyatlarının sənədləşdirilməsi;
- Təqdim edilmiş kreditin və eyni zamanda təminatın vəziyyəti ilə bağlı nəzarət tədbirlərinin həyata keçirilməsi;

**Kredit portfeli səviyyəsində riskin idarəedilməsi metodu**

- Riskin minimallaşdırılması baxımından kredit qoyuluşlarının diversifikasiyası;
- Konsentrasiya, asılılıq və s. bu tip risklərin və girov təminatı olmayan kredit portfelinin payına indikativ limitlərin müəyyən edilməsi;
- Kredit komitələrinin fəaliyyətinin qiymətləndirilməsi;
- Portfelin ümumi statistik göstəriciləri əsasında məcmu risk səviyyəsinin təhlil edilməsi;
- Defolta məruz dəyər ehtimalı metoduna əsasən kredit risklərinin hesablanması;
- Kontragentə limitin müəyyən edilməsinin Bankın qəbul etdiyi sahə, region və ölkə risklərinin səviyyəsinə təsirinin müəyyən edilməsi;

**Bazar riskinin idarə edilməsi üçün istifadə olunan metodlar:**

- Bankın balansının bazar parametrlərinin dəyişməsinə həssaslığının təhlili, həmçinin kəskin dəyişmələrə bank kapitalının dayanıqlığının (stress-test) qiymətləndirilməsi;
- Açıq valyuta mövqeləri üzrə limitlərin müəyyən edilməsi;
- Valyuta riskinin hesablanması və həssaslığa dair stress-testlərin təşkil edilməsi;

- Faizli aktiv və passivlər üzrə faiz dəyişikliyini əhatə edən stress ssenarilərin təşkil edilməsi;
- Cəlb etmə və yerləşdirmələrin bazar volatilliyinə həssaslığının təhlili, ssenari analizlərinin təşkili, nəticələrin bank kapitalına təsirinin ölçülməsi;
- Beynəlxalq maliyyə institutlarının normativ tələbləri baxımından təhlillərin aparılması, müvafiq ssenarilər üzrə nəticələrin bankın dayanıqlığına təsirinin ölçülməsi;

**Likvidlik riskinin idarə edilməsi üçün istifadə olunan metodlar:**

- “GAP” analiz metoduna əsasən, likvidlik riskinin təhlil edilməsi;
- Aktiv və öhdəliklərin müddətlər üzrə təhlil (Maturity analysis) edilməsi;
- Kredit riskləri baxımından kredit portfeli üzrə pisləşmələrin bankın likvidliyinə təsirinin ölçülməsi;
- Valyuta məzənnələrinin dəyişməsi baxımından aktiv və öhdəliklər arasında uyğunsuzluğun təhlili;

**Əməliyyat risklərinin idarə edilməsi üçün istifadə olunan metodlar:**

- Əsas indikator yanaşması və standart yanaşma metodları ilə əməliyyat risklərinin hesablanması;
- Əməliyyat prosesləri üzrə istilik xərtisənin qurulması və stress testin aparılması;
- İnformasiya texnologiyaları sistemindən və insan faktorundan irəli gələn nöqsanların kompleks təhlili və tarixi məlumatlar əsasında analizlərin aparılması;
- Tez-tez baş verən əməliyyat xətalarının monitorinqi və proseslərin avtomatik icra edilməsi baxımından təkliflərin verilməsi;
- Daxili nəzarət sistemlərinin biznes prosedura uyğun təhlil edilərək boşluqların aşkar edilməsi;






2011 - AZƏRBAYCAN RESPUBLİKASI İLK DƏFƏ BMT TƏHLÜKƏSİZLİK ŞURASININ İKİ İLLİYƏ (2012-2013) QEYRİ-DAİMİ ÜZVÜ SEÇİLDİ.

## ÇİRKLİ PULLARIN YUYULMASI VƏ TERRORİZMİN MALİYYƏLƏŞDİRİLMƏSİNƏ QARŞI GÖRÜLƏN TƏDBİRLƏR

Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınması (ÇPY/TMM) sahəsində dövlət siyasətini həyata keçirən, bu sahədə nəzarət sistemini təkmilləşdirən və aidiyyəti dövlət orqanlarının fəaliyyətini əlaqələndirən orqan Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Maliyyə Monitorinqi Xidmətidir.

Hesabat ilində Bankda Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində fəaliyyət Azərbaycan Respublikasının Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında qanunu, Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Maliyyə Monitorinq Xidmətinin əmr və qərarları, Avropa Şurasının Pulların Yuyulması və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Maliyyə Tədbirləri üzrə İşçi Qrupunun (FATF) və Maliyyə Kəşfiyyatı Orqanlarının ixtisaslaşmış qurumu – Eqmont Qrupunun tövsiyyə və qərarları bazasında aparılmışdır.

ÇPY/TMM üzrə risklər əhəmiyyətlilik baxımından ölkə, müştəri, məbləğ və məhsul riski kimi təsnifləşdirilərək risk kateqoriyaları hazırlanmışdır. Hazırlanmış olan risk kateqoriyaları hesabat ilində avtomatlaşdırılmış bank sistemində tətbiq olunmağa başlamış yeni müştəri xidmətləri modulunda istifadə edilmişdir. Belə ki, müştərilər bu kateqoriya əsasında aşağı, orta və yüksək riskli müştərilər kimi təsnifləşdirilmişdir. Təsnifləşdirilmiş müştərilər kateqoriyaya uyğun olaraq, dövrü olaraq eyniləşdirilir. Yüksək risk kateqoriyasına aid olan müştərilərin 3 aydan bir, Orta risk kateqoriyasına aid olan müştərilərin 6 aydan bir, Aşağı risk kateqoriyasına aid müştərilərin ildə bir dəfə eyniləşdirilməsi aparılır, müştərilərimiz olan maliyyə institutları Öz Müştərini tanı prinsipinə əsasən sorğu anket formaları əsasında eyniləşdirilir və MMX-nin tələblərinə uyğun olaraq addımlar atılır.

Hesabat ili ərzində ÇPY/TMM istiqamətində bankdaxili təlimlərin sayı artırılmışdır. Müştəri Xidməti Strukturlarında çalışan əməliyyatçıların və nəzarətçilərin ÇPY/TMM üzrə bilikləri elektron poçt, eyni zamanda birbaşa təlimlər vasitəsi ilə artırılmışdır. ÇPY/TMM sahəsi üzrə biliklərinin artırılması məqsədi ilə həm əməliyyat, eyni zamanda risklərin idarə edilməsi strukturları tərəfindən mütəmadi təlimlər keçirilmişdir. ÇPY/TMM üzrə ümumi Bank əməkdaşlarına il ərzində 3 sayda təlimlər keçirilmişdir. Hesabat ilində Bankın baş ofisində Bakı şəhəri və Sumqayıt şəhərində yerləşən filial əməkdaşlarına 2, Gəncə filialında isə regionlardakı filialların əməkdaşlarına ÇPY/TMM sahəsi üzrə 1 təlim keçirilmişdir.

Hesabat ilində Bankın Risklərin İdarə Edilməsi strukturu tərəfindən ÇPY/TMM

istiqamətində əlavə bankdaxili proqram yaradılmışdır. Əlavə proqram təminatı hər bir bank əməliyyatından əvvəl müştəriləri eyniləşdirmək, Sanksiya tətbiq olunmuş şəxslərin, Nəzarət altında olan şəxslərin, Ofşor zonalarla, Qara siyahı ölkələri və onların vətəndaşları ilə bağlı əməliyyatların qarşısını almaq məqsədi ilə yaradılmışdır.

Əlavə olaraq, əməliyyatçıların bankdaxili proqramdan düzgün istifadəsinə və müştərilərin yoxlanılması məqsədi ilə nəzarəti gücləndirmək üçün filial rəhbərlərinə ÇPY/TMM bankdaxili proqramda nəzarət bölümü yaradılmışdır.








2012 - AZƏRBAYCAN “LIGHT YOUR FIRE” - “ÖZ MƏŞƏLİNİ ALOVLANDIR” ŞÜARI ALTINDA “EUROVISION-2012” MÜSABİQƏSİNƏ EV SAHİBLİYİ ETDİ.

# İNFORMASİYA TEXNOLOGİYALARI

Hesabat ilində TuranBank informasiya texnologiyaları sahəsində bir sıra yeniliklər həyata keçirmişdir. Belə ki, Bankın informasiya texnologiyaları və informasiya təhlükəsizliyi infrastrukturuna investisiyalar edilmiş, infrastruktur gücləndirilmişdir. Bundan əlavə, Microsoft Corporation şirkəti ilə əməkdaşlıq genişləndirilmiş, Bankda Windows 10 əməliyyat sistemi və Microsoft Office proqram paketinin lisenziyaları alınaraq tətbiq edilmişdir.

2016-2019-cu illər üçün İT üzrə Strateji Plan hazırlanmış, uzunmüddətli hədəflər və qısa müddətli planlar müəyyən edilmişdir. Bu plana əsasən, növbəti illər üçün Bankın informasiya texnologiyaları üzrə əsas prioritetləri elektron bankçılığın, o cümlədən müştərilərə göstərilən distant xidmətlərin əhatə dairəsinin və çeşidinin, həmçinin nağdsız əməliyyatların dövriyyəsinin artırılmasıdır.

Bank tərəfindən müştəri məlumatlarının məxfiliyi və əməliyyatların təhlükəsizliyi üzrə nəzarət mexanizmlərinin tətbiqinin nəticəsi olaraq TuranBanka etibar etmiş müştərilərə aid məlumatlar yaxud aparılan əməliyyatlarla bağlı heç bir informasiya təhlükəsizliyi insidenti baş verməmişdir. Müştərilərə məsafədən xidmət göstərilməsi istiqmətində yeniliklərə paralel olaraq informasiya təhlükəsizliyinin inkişafının davam etdirilməsi, müştəri məlumatlarının, həmçinin bütün növ bank əməliyyatlarının təhlükəsizliyinin tam təmin edilməsi, kiber hücumlara qarşı müdafiə mexanizmlərinin daim təkmilləşdirilməsi əsas hədəflərdən biri olaraq qəbul edilmişdir.

Bankın prioritet olaraq qəbul etdiyi daha vacib istiqamətlərdən biri də gənclərin informasiya texnologiyaları sahəsinə olan marağını stimullaşdırmaq, onların bu sahə üzrə inkişafına dəstək olmaq məqsədilə müxtəlif tədbirlər təşkil etmək, bu sahə üzrə təhsil alan gənclərin praktik vərdişlərə sahib olması üçün onların Bank daxilində təcrübə keçməsinə geniş imkan yaratmaqdır.

Dünya iqtisadiyyatında gedən proseslərlə bağlı olaraq Bank informasiya texnologiyalarından səmərəli və effektiv istifadə etməklə müştəri məmnuniyyəti səviyyəsini yüksəltməyi, xərcləri minimallaşdırmağı və bu sahəyə yatırılmış investisiyanın geri dönüşünü təmin etməyi nəzərdə tutur. Bank əvvəlki illərdə olduğu kimi növbəti illərdə də texnologiyanın imkanlarından optimal şəkildə istifadə etməklə müştərilərə dayanıqlı, keyfiyyətli, etibarlı xidmət göstərəcəkdir.






2013 - AZƏRBAYCANIN İLK MİLLİ SÜNİ TELEKOMMUNİKASİYA PEYKİ "AZERSPACE-1" ORBİTƏ ÇIXARILDI.

## İNSAN RESURSLARI

Hesabat ilində İnsan Resurslarının İdarə Edilməsi Departamentinin (İRİED) əsas fəaliyyət isitqaməti işçilərin iş keyfiyyətinin artırılmasına və Bankda yenicə əmək fəaliyyətinə başlayan hər bir əməkdaşın yaradıcı potensialından maksimum istifadə edərək onun karyera artımına şərait yaratmaqdan ibarət olmuşdur.

Bank hesabat ilini 403 nəfər əməkdaşla başa vurmuşdur. Keçən illərdə olduğu kimi, hesabat ilində də işçilərin karyera artımı gündəmdə olmuş, işçi ehtiyacı müəyyənləşdirilmiş, ehtiyat kadr siyasəti daha da təkmilləşdirilmişdir. Bankımız özünün kadr siyasəti çərçivəsində əməkdaşlarının uyğun vəzifəyə münasibliyi ilə kifayətlənmir, onların daha hansı vəzifələrdə potensialını göstərə biləcəyini, o cümlədən şəxsi və mənəvi keyfiyyətlərini aşkarlamağa çalışır. Bu da bizə kadrlarımızın müxtəlif struktur sahələrində püxtələşməsinə, həmçinin işçi ehtiyaclarının Bank daxilindən təmin olunmasına kömək edir.

Bilikli, bacarıqlı və ən əsası təcrübəli olmaq işçinin qarşısındakı məqsədə nail olmasında olduqca mühüm amildir. Bu səbəbdən də İRİED-nin başlıca hədəflərindən biri işçilərin daha peşəkar kadr kimi formalaşmalarına şərait yaratmaqdır. Bu baxımdan təlim-tədris keyfiyyətləri Bank üçün hər zaman öndə durur. Bankın Təlim Mərkəzi 2016-cı ildə daha müasir standartlara cavab verən ən son texnoloji avadanlıqlarla təchiz olunmuşdur ki, bu da keçirilən treninqlərin daha keyfiyyətli təşkilinə xidmət edir. Mərkəz, həmçinin yeni təlim strategiyalarının tətbiqinə, daxili təlimçilərin hazırlanmasına, o cümlədən təlimə nəzarətin gücləndirilməsinə şərait yaradır. Elə bunun nəticəsidir ki, Bankın müvafiq struktur rəhbərləri və daxili təlimçiləri müxtəlif seminarlarda və kənar təşkilatların karyera mərkəzlərində uğurlu təlimlər keçir, biliklərini bölüşürlər. Bu sahədə Bankın daxili təlimçiləri ilə yanaşı, IFC (BMK) və USAID (ABŞ Beynəlxalq İnkişaf Agentliyi) kimi beynəlxalq institutların ekspertlərinin də təcrübəsindən yararlanırıq. Onların dəstəyi ilə hətta regionlarda belə, treninqlər təşkil olunur və gələcəkdə də bu istiqamətdə əməkdaşlığın davam etdirilməsi planlaşdırılır.

Bank əməkdaşlarının öz vəzifələri ilə bağlı bilik səviyyələrinin artırılmasında maraqlı olduğu kimi, onların asudə vaxtlarının səmərəli keçməsinə də çalışır. Hesabat ilində əməkdaşlarımız Azərbaycan Banklar Assosiasiyası tərəfindən təşkil olunan banklararası “Şahmat” və "Breyn rinq" intellektual yarışmalarında Bankımızı layiqincə təmsil edərək uğurlu nəticələr göstərmişlər.



2015 – AZƏRBAYCANDA TARİXDƏ İLK DƏFƏ “BİRİNCİ AVROPA OYUNLARI” İDMAN YARIŞI KEÇİRİLDİ. YARIŞLARDA 50 ÖLKƏNİN 10 000 İDMANÇISI 30 İDMAN NÖVÜNDƏ MÜBARİZƏ APARDI.

## BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

Hesabat ili ərzində Bankımız əvvəlki illərdə qurduğu məhsuldar əlaqələr və qazandığı etibarlı tərəfdaş imici sayəsində mövcud əməkdaşlıq imkanlarını uğurla davam etdirmişdir. Belə ki, hesabat ilində ümumilikdə Bankın xarici maliyyə qurumlarından cəlb etdiyi vəsaitlərin büdcə planlaşdırılmasına uyğun olaraq, Kiçik və Orta Sahibkarlıq (KOS) və mikro portfelin genişləndirilməsi, eyni zamanda Bankın müştərilərinin idxal/ixrac əməliyyatlarının maliyyələşməsi istiqamətində istifadəsi davam etdirilmişdir. Hal-hazırda dünyanın bir sıra nüfuzlu maliyyə təşkilatları ilə KOS və ticarətin maliyyələşməsi istiqamətində danışıqlar davam etdirilir və bu istiqamətdə növbəti illərdə yeni əməkdaşlıq imkanları qiymətləndirilir.

Hesabat ilində qlobal iqtisadiyyatda müşahidə olunan mürəkkəb proseslər, eyni zamanda iri iqtisadiyyata malik və əsas neft istehlakçıları olan bir sıra inkişaf edən ölkələrdə iqtisadi artımın zəifləməsi ölkəmizdən də yan keçməmişdir. İqtisadi aktivliyin müəyyən dərəcədə azalması bank sektorunda da müəyyən problemlərin yaranmasına gətirib çıxarmışdır. Maliyyə çalxalanmalarının təsiri nəticəsində yaranmış iqtisadi şəraitdə bazar və kredit risklərinin ölçülməsində qeyri-müəyyənlik olmasını və xüsusilə də müştərilərin xarici valyutada olan öhdəliklərinin geri ödənişlərində çətinliklərin olması səbəbi ilə ABŞ dollarında olan kreditlərə maraq göstərməmələrini nəzərə alan Bank, öz mühafizəkar strategiyasına uyğun şəkildə, müvəqqəti olaraq xarici valyutada kredit verilməsini məhdudlaşdırmışdır. Təklif edilən xidmətlərin səmərəliliyinin və effektivliyinin artırılması üçün, eyni zamanda, əməliyyat xərclərini azaltmaq məqsədilə inzibati, marketinq satış və bir sıra digər xərclərinin optimallaşdırılması prosesi davam etdirilmişdir. Bunun nəticəsi olaraq, Bankımız bir sıra xarici maliyyə institutları ilə cəlb edilmiş vəsaitlərin geri ödəniş qrafiklərinin dəyişdirilməsi və ya birbaşa qaytarılması ilə bağlı razılığa gəlmiş və proses uğurla həyata keçirilmişdir. Belə ki, say olaraq ümumilikdə 6 halda, ümumi məbləği 12,3 mln. ABŞ dolları olan borc öhdəliyinin vaxtından əvvəl ödənişinə başlanılmış və hesabat ilində nəzərdə tutulan öhdəliklərin icrası uğurla tamamlanmışdır.

Hesabat ilində Bankımız dünyanın müxtəlif nüfuzlu maliyyə institutları ilə texniki yardım layihələrinin alınması istiqamətində əməkdışlıqlar qurmuşdur. Bunun nəticəsi olaraq, Enerji Səmərəliliyi layihələrinin maliyyələşdirilməsi istiqamətində TuranBank və Global Climate Partnership Fondu (GGPF) arasında 8 illik və 10 mln. ABŞ dolları məbləğində imzalanmış kredit sazişi üzrə nəzərdə tutulan texniki dəstək işləri yekunlaşmışdır. Qeyd edək ki, layihənin əsas məqsədi karbon dioksidin ($CO_2$) emissiyasının 20%-dək azaldılmasını tələb edən layihələrin maliyyələşdirilməsi məqsədi ilə

KOS və korporativ müştəriləri uzun müddətli maliyyə vəsaiti ilə təmin etməkdir.

Layihənin hazırlanmasına və həyata keçirilməsinə texniki dəstəyin göstərilməsi məqsədi ilə Bank və GGPF arasında Texniki Yardım Layihəsi imzalanmışdır. Qeyd olunan müqavilə çərçivəsində hesabat ilində fondun nümayəndələri, eləcə də texniki mühəndislərin iştirakı ilə Bank rəhbərliyi və struktur bölmələrinin direktorları arasında bir sıra görüşlər təşkil edilmiş, əməkdaşlar üçün ixtisaslaşdırılmış təlimlər keçirilmişdir. Görüşlərin yekunu olaraq enerji səmərəliliyi layihələrinin maliyyələşdirilməsi üzrə strategiya və marketinq konsepsiyası, layihə üzrə təklif olunacaq kredit məhsullarının şərtləri işlənərək təsdiq olunmuşdur. Bundan əlavə, layihə üçün potensial Bank müştəriləri ilə görüşlər keçirilmiş və layihə üzrə seçilmiş müştərilərin fəaliyyətinin auditi aparılaraq onların biznes sahələrinin monitorinqi təşkil edilmişdir.

Bank “Yaşıl Bankçılıq” ticarət nişanı altında Enerji Səmərəliliyi layihələri çərçivəsində kreditlərin verilməsinə iqtisadi fəallıqdan asılı olaraq qarşıdakı dövrdə başlamağı nəzərdə tutur.

Bundan başqa, Bankımız hesabat ilində ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə birlikdə Bank əməkdaşlarına bir sıra təlim kursları keçirmişdir. Bank və USAID arasında bağlanmış “Kredit Portfelinə Zəmanət Müqaviləsi” layihəsi çərçivəsində hesabat ilinin birinci rübündən danışıqlara başlanılmış və nəticə olaraq USAID ekspertləri tərəfindən aşağıdakı mövzularda məsləhət xidmətlərinin və təlim keçirilməsi razılaşdırılmışdır:

1. “Kənd təsərrüfatının kreditləşməsi proseslərində ətraf mühitin qorunması”;

2. “Dəyər zəncirinin maliyyələşdirilməsi (kənd təsərrüfatı sahəsində dəyər zəncirinin müxtəlif istehsalçılarının kreditləşdirilməsi)”;

3. “Yumşaq və sərt kollektor üsulları”;

4. “İqtisadi böhranlar dövründə kreditləşmənin xüsusiyyətləri”;

Bununla əlaqədar olaraq qarşı tərəfin eksperti Bankımızda rəsmi səfərdə olmuş və yuxarıda sadalanan mövzularla bağlı ümumilikdə 60 Bank əməkdaşına 4 təlim keçirilmişdir. Adı çəkilən təlim hesabat ilində uğurla yekunlaşdırılmışdır.





2016 - RIO-DE-JANEYRODA KEÇİRİLƏN YAY OLİMPİYA OYUNLARINDA AZƏRBAYCAN İDMANÇİLARI DÖRDİLLİYİN ƏSAS YARIŞLARINDA QAZANDIQLARI MEDALLARIN SAYINA GÖRƏ ÖLKƏMİZİN REKORDUNU MÜƏYYƏNLƏŞDİRİBLƏR. AZƏRBAYCAN OLİMPİYA YIĞMASI 18 MEDAL QAZANMIŞDIR: 1 - QIZIL, 7 - GÜMÜŞ VƏ 10 –BÜRÜNC.

## XƏZİNƏDARLIQ FƏALİYYƏTİ

Hesabat ili son onillikdə iqtisadi cəhətdən ən əlverişsiz, bank sektorunun geriləməsinə səbəb olan və ümumilikdə inkişaf üçün qeyri-münbit maliyyə ili olaraq yadda qalmışdır. Xəzinədarlıq Departamenti, neftin dünya bazarında ucuzlaşmağa başladığı 2014-cü ilin ortalarından davam etməkdə olan durğun iqtisadi mühitdə, mümkün olduğu qədər konservativ mövqe seçərək Bankın əsas göstəricilərinin və aktivlərinin keyfiyyətinin qənaətbəxş səviyyədə saxlanmasına çalışmışdır. Maliyyə bazarında manevr imkanlarının məhdud olması işin səmərəli qurulmasına əhəmiyyətli dərəcədə mənfi təsir göstərmişdir. Bütün çətinliklərə baxmayaraq, ilk növbədə likvidlik səviyyəsinin yüksək saxlanması, valyuta mövqeyinin gəlirə meyilli tutulması, faiz və idarəetmə xərclərinin tam nəzarət altına alınması, aktivlərin sağlam saxlanması və pisləşmədən qorunması, öhdəliklərin diversifikasiyasının bacardıqca əlverişli bölgüdə tutulması və dalğalanmalara çevik şəkildə qarşılıq verərək Bankı risklərdən qoruyan xəzinədarlıq fəaliyyəti göstərilmişdir.

Ölkə iqtisadiyyatında baş verən neqativ hallar, əsasən manatın ABŞ dolları qarşısında böyük volatilliklə ucuzlaşıb-bahalaşması nəticəsində yaranan qeyri-sabit məzənnə Bankın müştərilərinə də təsirsiz ötüşməmiş, hüquqi və fiziki şəxslərin ödəmə qabiliyyəti pisləşmiş, psixoloji təzyiqdən bank sektoruna qarşı güvənsizlik yaranmış, bu da birbaşa Bankın əsas aktiv maddəsi olan kredit portfelinə mənfi təsir göstərmişdir. Bunun nəticəsində Bankın yerləşdirmə imkanları məhdudlaşmış, kredit satışları dayanmış, faiz gəlirləri azalmış, müştərilərin hərəkətsizliyi nəticəsində qeyri-faiz gəlirləri də qənaətbəxş səviyyədə olmamışdır. Bundan başqa, hesabat ilində 11 bankın lisenziyasının ləğv edilməsi müştərilər və xüsusən əmanətçilər arasında bank sektoruna olan inamı xeyli azaltmışdır ki, bu da əmanət portfelinin həcminə öz mənfi təsirini göstərmişdir.

Bütün çətinliklərə baxmayaraq, Xəzinədarlıq Departamenti bazar əməliyyatlarının nəticələrini yaxşılaşdırmağa, öz missiyasına uyğun olaraq gəlir mərkəzi fonunda çıxış etməyə davam etmişdir. Hesabat ilində daha da çox valyuta bazarlarında ticarət, pul bazarında vəsaitlərin cəlbetmə və yerləşdirilməsi, sərbəst vəsaitlərin çevik idarə edilməsi həyata keçirilmişdir. Sərbəst vəsaitlər ən optimal maliyyə alətlərinə, banklararası pul bazarına və dilinq əməliyyatlarına yönəldilmişdir.

Bankın aktivlərinin öz öhdəliklərini vaxtında və tam ödəmək iqtidarında olması gələcəkdə də maliyyə institutlarının, korporativ müştərilərin və əsasən də hər bir fiziki şəxsin Banka olan etibarının itməyəcəyinə əminlik yaradır.



Baku city circuit

2016 - AZƏRBAYCANDA İLK DƏFƏ “FORMULA – 1” ÜZRƏ AVROPA QRAN-PRİSİ KEÇİRİLDİ.

# AUDİTOR RƏYİ

"KPMG Audit Azərbaycan" MMC
Port Baku Cənub Qülləsi,
Neftçilər prospekti 153
Bakı, Azərbaycan, AZ1010
Telefon +994 (12) 404 8910/11
Faks +994 (12) 404 8914
İnternet www.kpmg.az

# Müstəqil Auditorların Hesabatı

TuranBank Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və İdarə Heyətinə:

## *Rəy*

Biz TuranBank Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin ("Qrup") 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas uçot siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından, Qrupun 31 dekabr 2016-cı il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq düzgün əks etdirir.

## *Rəy üçün Əsas*

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlar əsasında bizim məsuliyyətlərimiz hesabatımızın *Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti* hissəsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının *Peşəkar Mühasiblərin Etika Məcəlləsinə* (IESBA Məcəlləsi) əsasən Qrupdan müstəqilik və IESBA Məcəlləsi üzrə digər etika məsuliyyətlərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

## *Əsas Audit Məsələləri*

Əsas audit məsələləri, bizim peşəkar mülahizəmizə əsasən, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik məsələlərdir. Bu məsələlər ümumilikdə konsolidə edilmiş maliyyə hesabatlarının auditi çərçivəsində və bu hesabatlarla bağlı rəyimizin formalaşdırılması zamanı nəzərə alınmışdır və biz bu məsələlər barədə ayrıca rəy vermirik.

"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti Azərbaycan Respublikası qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və İsveçrə şirkəti olan "KPMG International Cooperative" ("KPMG International") müstəqil şirkətlər şəbəkəsinin üzvüdür.

| ***Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi*** | |
|---|---|
| Konsolidə edilmiş maliyyə hesabatlarında Qeyd 3, 4 və 9-a baxın. | |
| ***Əsas audit məsələsi*** | ***Bu məsələ ilə bağlı apardığımız audit prosedurları*** |
| Müştərilərə verilmiş kreditlərin dəyərsizləşməsi rəhbərlik tərəfindən mülahizələrin tətbiqi və çox subyektiv ehtimalların istifadəsi vasitəsilə hesablanır.<br><br>Aktivlərin 53%-dən artıq hissəsini təşkil edən müştərilərə verilmiş kreditlərin əhəmiyyətli olması və dəyərsizləşmə ehtiyatının hesablanmasında qeyri-müəyyənliklə əlaqədar olaraq, bu, əsas audit məsələsi hesab edilir. | Biz dəyərsizləşmə ehtiyatının hesablanması üzrə bütün Qrupda tətbiq edilən praktikaları qiymətləndirərək onları BMHS tələbləri ilə müqayisə etdik və dəyərsizləşmə modellərində Qrupun ehtimallarının müvafiqliyi və əsaslılığını dəyərləndirdik.<br><br>Biz tanınmış dəyərsizləşmə ehtiyatının adekvatlığını təsdiq etmək üçün kollektiv əsasla bu ehtiyatın hesablanmasında istifadə edilmiş aşağıdakı əsas ehtimalları nəzərə aldıq:<br><br>- müştərilərə verilmiş kreditlər üçün defolt ehtimalı. Biz gecikmə dövrləri üzrə bölüşdürülmüş debitor borclarının tarixi göstəricilərini müqayisə etməklə bu ehtimalı sınaqdan keçirdik;<br><br>- kreditlər üzrə defolt səviyyəsi əsasında zərər. Biz cari iqtisadi şərait barədə hesablamamızı nəzərə alaraq, müsadirə edilmiş aktivlər üzrə satış statistikasını təhlil etməklə bu zərəri sınaqdan keçirdik.<br><br>Biz seçilmiş kreditlər üzrə gecikmə günlərinin sayını yenidən hesablamaqla, gecikmə dövrləri üzrə tarixi məlumatların dəqiqliyini sınaqdan keçirdik.<br><br>Əlavə olaraq, biz dəyərsizləşmə əlaməti olan ən böyük kredit qalıqları üzrə əlaqəli debitor borclarının xalis balans dəyərini girov qoyulmuş aktivdən gözlənilən pul axınları ilə müqayisə etməklə, tanınmış ehtiyatın adekvatlığını sınaqdan keçirdik.<br><br>Biz həmçinin konsolidə edilmiş maliyyə hesabatı açıqlamalarının Qrupun kredit riskinə məruz qalmasını düzgün əks etdirib-etdirmədiyini qiymətləndirdik. |

## *Digər məsələ*

Qrupun 31 dekabr 2015-ci il tarixinə və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının auditi digər auditor tərəfindən aparılmışdır və həmin digər auditor qeyd edilən maliyyə hesabatları üzrə 18 may 2016-cı il tarixində şərtsiz müsbət rəy vermişdir.

## Konsolidə edilmiş Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İqtisadi Subyektin İdarə edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının BMHS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdimatına, habelə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq əhəmiyyətli təhriflərin müşahidə olunmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin qənaətinə əsasən zəruri sayılan daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Qrupu likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

## Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditi üzrə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında, fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik yüksək əminlik səviyyəsi olsa da, BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mülahizə tətbiq edir və peşəkar skeptikliyi qoruyub saxlayırıq. Biz həmçinin:

— Fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, konsolidə edilmiş maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranan riskdən daha yüksəkdir, çünki fırıldaqçılıq gizli sözləşmə, dələduzluq, bilərəkdən səhv buraxılma, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.

— Qrupun daxili nəzarət sisteminin effektivliyi barədə rəy bildirmək üçün deyil, şəraitə uyğun olan audit prosedurlarının işlənib hazırlanması üçün daxili nəzarət sistemi barədə anlayış əldə edirik.

— Rəhbərlik tərəfindən tətbiq edilən uçot siyasətlərinin müvafiqliyini və aparılmış mühasibatlıq hesablamalarının və əlaqəli açıqlamaların əsaslı olmasını qiymətləndiririk.

KPMG

— Rəhbərliyin fəaliyyətin fasiləsizliyi prinsipindən istifadə etməsinin müvafiqliyi və əldə etdiyimiz audit sübutuna əsasən, Qrupun fasiləsiz fəaliyyətini davam etdirmək qabiliyyətini mühüm şübhə altına sala bilən hadisə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin olub-olmaması barədə qənaətə gəlirik. Əgər biz əhəmiyyətli qeyri-müəyyənliyin olması qənaətinə gəlsək, öz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara yönəltməli və ya bu cür açıqlamalar qeyri-adekvat olduqda, rəyimizi modifikasiya etməliyik. Bizim nəticələrimiz auditor hesabatımızın tarixinə qədər əldə edilmiş audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və ya şəraitlər Qrupun fasiləsiz fəaliyyətini dayandırmasına səbəb ola bilər.

— Konsolidə edilmiş maliyyə hesabatlarının, o cümlədən açıqlamaların ümumi təqdimatı, strukturu və məzmununu, habelə konsolidə edilmiş maliyyə hesabatlarının əsas əməliyyat və hadisələri düzgün təqdim edib-etməməsini qiymətləndiririk.

— Konsolidə edilmiş maliyyə hesabatları ilə bağlı rəy ifadə etmək məqsədilə təşkilatların maliyyə məlumatları və ya Qrup daxilində biznes fəaliyyətləri ilə bağlı kifayət qədər müvafiq audit sübutu əldə edirik. Biz Qrupun auditinə rəhbərlik, nəzarət və auditin aparılması üçün cavabdehik. Biz öz audit rəyimizlə bağlı tam məsuliyyət daşıyırıq.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərlə əlaqə yaradırıq.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə müstəqilliklə bağlı müvafiq etik tələblərə əməl etməyimizlə bağlı bəyanat verir və həmin şəxsləri əsaslı şəkildə müstəqilliyimizə təsir etməsi güman edilə bilən bütün qarşılıqlı əlaqələr və digər məsələlər, habelə zəruri hallarda müvafiq ehtiyat tədbirləri barədə məlumatlandırırıq.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxsləri məlumatlandırdığımız məsələlər arasından, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi üçün ən mühüm əhəmiyyətə malik olmuş və bu səbəbdən, əsas audit məsələlərinə daxil edilmiş məsələləri müəyyən edirik. Məsələ barədə ictimaiyyətə açıqlamanın qanunvericilik və ya normativ aktlarla qadağan edilməsi halları və ya nadir hallarda bu məsələnin hesabatımızda açıqlanmasının mənfi nəticələrinin belə açıqlamanın ictimai əhəmiyyətli faydalarından artıq olması əsaslı şəkildə ehtimal edildiyi üçün, bu məsələnin hesabatımızda açıqlanmamalı olması qənaətinə gəldiyimiz hallar istisna olmaqla, biz bu cür məsələləri auditor hesabatımızda təqdim edirik.

Hazırkı müstəqil auditorların hesabatının hazırlanması ilə nəticələnmiş audit layihəsinin rəhbəri:

Andrey Kuznetsov

"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti KPMG "KPMG Audit Azerbaijan" Limited Liability Company

KPMG Audit Azərbaycan MMC

Bakı, Azərbaycan

20 iyun 2017-ci il

**TURANBANK ASC**
**31 DEKABR 2016-CI İL TARİXİNƏ**
**MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2016 | 31 dekabr 2015 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 101,130 | 113,613 |
| Satıla bilən maliyyə aktivləri | 7 | 4,197 | 786 |
| Banklara verilmiş kreditlər | 8 | 115,690 | 107,095 |
| Müştərilərə verilmiş kreditlər | 9, 28 | 272,816 | 280,800 |
| Əmlak avadanlıq və qeyri-maddi aktivlər | 10 | 12,663 | 12,836 |
| Cari mənfəət vergisi aktivləri | | - | 1,049 |
| Təxirə salınmış mənfəət vergisi aktivləri | 22 | - | 5 |
| Digər aktivlər | 11 | 1,764 | 1,557 |
| **CƏMİ AKTİVLƏR** | | **508,260** | **517,741** |
| **ÖHDƏLİK VƏ KAPİTAL** | | | |
| **ÖHDƏLİKLƏR:** | | | |
| Banklardan cəlb olunan depozitlər və qalıqlar | 12 | 11,423 | 21,068 |
| Müştəri hesabları və depozitləri | 13, 28 | 274,636 | 246,923 |
| Subordinasiya borcları | | 12,664 | - |
| Digər borc öhdəlikləri | 14 | 168,378 | 199,642 |
| Təxirə salınmış vergi öhdəliyi | | - | 523 |
| Digər öhdəliklər | 15 | 513 | 604 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **467,614** | **468,760** |
| KAPİTAL: | | | |
| Səhmdar kapitalı | 16 | 55,003 | 50,002 |
| Səhm mükafatı | 16 | 724 | 724 |
| Binaların yenidən qiymətləndirilməsi üzrə artım | | 1,224 | 1,224 |
| Yığılmış zərər | | (16,305) | (2,969) |
| **CƏMİ KAPİTAL** | | **40,646** | **48,981** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **508,260** | **517,741** |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

11-59-cu səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

**TURANBANK ASC**
**31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
**MƏCMU GƏLİRLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT**
*(Başqa qeydlər olmazsa, Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2016-cı il tarixinə bitən il | 31 dekabr 2015-ci il tarixinə bitən il |
|---|---|---|---|
| Faiz gəliri | 18, 28 | 31,156 | 35,174 |
| Faiz xərci | 18, 28 | (24,875) | (19,168) |
| **Xalis faiz gəliri** | | **6,281** | **16,006** |
| Faiz hesablanan aktivlər üzrə dəyərsizləşmə zərərləri | 9, 28 | (13,323) | (5,604) |
| **Xalis faiz (xərci)/gəliri** | | **(7,042)** | **10,402** |
| Haqq və komissiya gəliri | 19, 28 | 3,677 | 3,172 |
| Haqq və komissiya xərci | 19, 28 | (871) | (922) |
| Xarici valyuta ilə ticarət əməliyyatları üzrə xalis gəlir | | 575 | 1,204 |
| Xarici valyuta mübadiləsi əməliyyatları üzrə xalis gəlir/(zərər) | | 1,702 | (1,584) |
| Digər əməliyyat gəliri | | 46 | 2 |
| **Xalis qeyri-faiz gəliri** | | **5,129** | **1,872** |
| **Əməliyyat (zərəri)/gəliri** | | **(1,913)** | **12,274** |
| İşçi heyəti ilə bağlı xərclər | 20 | (5,425) | (7,067) |
| Digər ümumi inzibati xərclər | 21 | (5,993) | (6,508) |
| **Mənfəət vergisindən əvvəlki zərər** | | **(13,331)** | **(1,301)** |
| Mənfəət vergisi (xərci)/gəliri | 22 | (5) | 169 |
| **İl üzrə zərər** | | **(13,336)** | **(1,132)** |
| **İl üzrə digər məcmu zərər** | | **(13,336)** | **(1,132)** |
| Hər səhm üzrə zərər | | | |
| Hər səhm üzrə ümumi zərər (manatla) | 17 | (285) | (25) |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

11-59-cu səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## TURANBANK ASC
### 31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | Səhmdar kapitalı | Səhm üzrə mükafat | Binaların yenidən qiymətləndirilməsi üzrə qiymət artımı | Bölüşdürülməmiş mənfəət / (Yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2015-ci il tarixinə qalıq** | | **47,002** | **724** | **1,224** | **3,623** | **52,573** |
| **Cəmi məcmu zərər** | | | | | | |
| İl üzrə zərər | | - | - | - | (1,132) | (1,132) |
| **İl üzrə cəmi məcmu zərər** | | **-** | **-** | **-** | **(1,132)** | **(1,132)** |
| **Təsisçilərlə birbaşa kapitalda qeydə alınan əməliyyatlar** | | | | | | |
| Bölüşdürülməmiş mənfəətin səhmdar kapitalına yönləndirilməsi | 16 | 3,000 | - | - | (3,000) | - |
| Ödənilmiş dividendlər | 16 | - | - | - | (2,460) | (2,460) |
| **Təsisçilərlə cəmi əməliyyatlar** | | **3,000** | **-** | **-** | **(5,460)** | **(2,460)** |
| **31 dekabr 2015-ci il tarixinə qalıq** | | **50,002** | **724** | **1,224** | **(2,969)** | **48,981** |
| **Cəmi məcmu zərər** | | | | | | |
| İl üzrə zərər | | - | - | - | (13,336) | (13,336) |
| **İl üzrə cəmi məcmu zərər** | | **-** | **-** | **-** | **(13,336)** | **(13,336)** |
| **Təsisçilərlə birbaşa kapitalda qeydə alınan əməliyyatlar** | | | | | | |
| Buraxılmış səhmlər | 16 | 5,001 | - | - | - | 5,001 |
| **Təsisçilərlə cəmi əməliyyatlar** | | **5,001** | **-** | **-** | **-** | **5,001** |
| **31 dekabr 2016-cı il tarixinə qalıq** | | **55,003** | **724** | **1,224** | **(16,305)** | **40,646** |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

Əlizaman İbrahimov

Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

**11-59-cu səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.**

# TURANBANK ASC
## 31 DEKABR 2016-CI İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ
## PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
*(Min Azərbaycan Manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2016-cı il tarixinə bitən il | 31 dekabr 2015-ci il tarixinə bitən il |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Alınmış faizlər | | 28,552 | 37,900 |
| Ödənilmiş faizlər | | (26,718) | (17,347) |
| Alınmış haqq və komissiyalar | | 3,677 | 3,172 |
| Ödənilmiş haqq və komissiyalar | | (871) | (922) |
| Xarici valyutalarla ticarət üzrə əldə olunmuş gəlir | | 575 | 1,204 |
| Əldə olunmuş digər əməliyyat gəliri | | 46 | 2 |
| İşçi heyəti ilə bağlı xərclər | | (5,425) | (7,067) |
| Ödənilmiş digər ümumi inzibati xərclər | | (4,313) | (5,432) |
| Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri | | **(4,477)** | **11,510** |
| **Əməliyyat aktivlərində və öhdəliklərində dəyişikliklər** | | | |
| Banklara verilmiş kreditlərdə və avanslarda xalis artım | | (5,406) | (66,058) |
| Müştərilərə verilmiş kreditlərdə xalis azalma/(artım) | | 10,011 | (4,981) |
| Digər aktivlərdə xalis (artım)/azalma | | 549 | 1,211 |
| Banklardan cəlb olunan depozitlər və qalıqlar üzrə xalis azalma | | (10,296) | (6,069) |
| Müştərilərin depozitləri və cari hesablarında xalis artım | | 4,496 | 10,120 |
| Digər öhdəliklərdə xalis (azalma)/artım | | (105) | 26 |
| **Ödənilmiş mənfəət vergisindən əvvəl əməliyyat fəaliyyətləri üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(5,228)** | **(54,241)** |
| Ödənilmiş mənfəət vergisi | | - | (1,467) |
| **Əməliyyatlarda istifadə olunan pul vəsaitləri** | | **(5,228)** | **(55,708)** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (981) | (1,680) |
| Satıla bilən maliyyə aktivlərinin alışı | | (3,281) | - |
| Satıla bilən maliyyə aktivlərinin satışından və geri alınmasından daxilolmalar | | 166 | 3,954 |
| **İnvestisiya fəaliyyətləri üzrə (istifadə olunan)/daxil olan pul vəsaitləri** | | **(4,096)** | **2,274** |
| **MALİYYƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Digər borc öhdəliklərinin əldə olunması | | 9,880 | 59,364 |
| Digər borc öhdəliklərinin ödənilməsi | | (47,060) | (680) |
| Subordinasiya borclarının əldə olunması | | 11,022 | - |
| Səhmdar kapitalının buraxılmasından daxilolmalar | | 5,001 | - |
| Ödənilmiş dividendlər | | - | (2,460) |
| **Maliyyə fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | | **(21,157)** | **56,224** |
| Pul vəsaitləri və onların ekvivalentlərində xalis (azalma)/artım | | (30,481) | 2,790 |
| Valyuta məzənnəsindəki dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | 17,998 | 58,668 |
| Dövrün əvvəlində pul vəsaitləri və onların ekvivalentləri | 6 | 113,613 | 52,155 |
| **Dövrün sonunda pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **101,130** | **113,613** |

İdarə heyəti tərəfindən:

Rauf Kazımov
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

Əlizaman İbrahimov
Maliyyə Menecmenti Departamentinin Direktoru
Bakı, Azərbaycan Respublikası

20 iyun 2017-ci il

11-59-cu səhifələrdəki qeydlər bu konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

TuranBank
...Bizimlə etibarlıdır